

# QANUNÇULUQ

HÜQUQ JURNALI

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı



№ 05 - may 2022



Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir.

Heydər ƏLİYEV,
Azərbaycan xalqının ümummilli lideri



**Əminəm ki, ədliyyə və məhkəmə orqanları hüquqi dövlət quruculuğu istiqamətində səylərini bundan sonra da davam etdirəcək və qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəklər.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

# QANUNÇULUQ
## hüquq jurnalı

N 05 - may 2022

**TƏSİSÇİ:**
Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi

**BAŞ REDAKTOR:**
Fikrət Məmmədov

**REDAKSİYA HEYƏTİ:**
Fuad Ələsgərov
Toğrul Musayev
Azər Cəfərov
Adil Əliyev
Cavid Hüseynov
Elçin Xələfov

*"Qanunçuluq" jurnalı 1966-cı ildən nəşr olunur. Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu sahəsində görülən işləri, ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatını, ədliyyə və məhkəmə fəaliyyətini işıqlandırır, öz səhifələrində görkəmli alimlərin, təcrübəli hüquqşünasların məqalələrinə və gənc mütəxəssislərin çıxışlarına yer verir, Azərbaycan ədliyyəsinin tarixi, məhkəmə təcrübəsi və digər mövzularda materiallar, eləcə də yeni qəbul olunan qanunların, fərmanların və digər normativ-hüquqi aktların mətnlərini müntəzəm şəkildə dərc edir.*

© "Ədliyyə Nəşriyyat Evi"MMC

# Bu sayımızda

## RƏSMİ MƏLUMAT


Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət ediblər ....4
Mehriban Əliyeva: "Heydər Əliyevin nurlu, xoş xatirəsi qəlbimizdə daim yaşayacaqdır"....5
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müraciəti ....6
Prezident İlham Əliyevin Türkiyəyə işgüzar səfəri....8
Prezident İlham Əliyev Belçika Krallığının paytaxtı Brüsseldə işgüzar səfərdə olub....10
Qarabağ və Şərqi Zəngəzur yenidən dirçəlir ....11
Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana işgüzar səfəri ....14
Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət ....16
Birinci vitse-prezident Mehriban Əliyeva Müstəqillik Günü ilə bağlı paylaşım edib....17


## ƏDLİYYƏ XƏBƏRLƏRİ


Müstəqillik Günündə ölkə Prezidentinin növbəti humanist qərarı....18
Ədliyyə işçiləri və hakimlər 28 May - Müstəqillik Günü münasibətilə Qarabağ Dirçəliş Fonduna ianə ediblər ....19
Ümummilli lider Heydər Əliyevin doğum günü ədliyyə orqanlarında qeyd olunub ....20
Səudiyyə Ərəbistanı ilə hüquqi sahədə əməkdaşlıq genişlənir....23
UNICEF ilə ədliyyə sahəsində səmərəli əməkdaşlıq edilir ....24
Ədliyyə və məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə tədbirlər vətəndaş məmnunluğunu artırır....25
Ədliyyə Akademiyasında il ərzində 7.000 şəxs ixtisasını artırıb ....26
Gənclər ədliyyə orqanlarına qulluğa qəbul olunub ....27
Notarius vəzifələri üzrə müsabiqədə iştirak edən namizədlərlə test imtahanı keçirilib ....29
Dünya Bankı ədliyyə sahəsində həyata keçirilən layihəni örnək kimi qiymətləndirir ....30
Ölkəmiz Türkiyə Ali İnzibati Məhkəməsinin yaradılmasının 154-cü ildönümü ilə bağlı tədbirdə təmsil olunub ....31
"Dayanıqlı inkişaf üçün ədalətli, sülhsevər və açıq cəmiyyətləri təşviq etmək" mövzusunda ictimai müzakirələr aparılıb ....32
"Ədliyyə orqanlarında və məhkəmələrdə kommunikasiya siyasəti" mövzusunda təlim keçirilib ....34
Ədliyyə işçiləri və hakimlər Şuşa şəhərində olublar....35
Hakimlərin Seçki Komitəsinin məlumatları....36
Hakimlərə əqli mülkiyyət sahəsində təlim keçirilib....37


## YENİ QANUNLAR, FƏRMANLAR...


Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının 2022-ci il 15 aprel tarixli 509-VIQD nömrəli Qanunu ....38
Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının 2022-ci il 26 aprel tarixli 516-VIQD nömrəli Qanunu ....38
Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının 2022-ci il 26 aprel tarixli 517-VIQD nömrəli Qanunu ....40
Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında AzƏrbaycan Respublikasının 2022-ci il 26 aprel tarixli 518-VIQD nömrəli Qanunu ....41
Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 1 iyun tarixli 1043 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron məhkəmə" informasiya sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 13 may tarixli 1676 nömrəli Fərmanı....44
Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 19 may tarixli 1685 nömrəli Fərmanı ....45

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət ediblər





**Mayın 10-da - xalqımızın xilaskar oğlu Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabanda Ümummilli Liderin məzarını ziyarət ediblər.**

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoyub, Ulu Öndərin xatirəsini ehtiramla anıb. Azərbaycan Respublikasının Dövlət Himni səslənib.

Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri də ulu öndər Heydər Əliyevin məzarı önünə gül dəstələri qoyublar.

Sonra dövlətimizin başçısı və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək məzarı üzərinə gül dəstələri qoyublar.

Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzülüb.

Xalqımızın ümummilli lideri Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki bu dahi insan öz işləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır. O, Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi qalıb. Ulu Öndər Azərbaycanı dünyaya tanıdıb. Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının Ümummilli Liderinə, üstəlik, dünya siyasətinin nəhənglərindən birinə çevirib. "Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub", - deyən Heydər Əliyev bütün dövrlərdə qüdrətli Azərbaycan uğrunda çalışıb. Dahi siyasi xadimin xidmətləri sayə-




sində dövlətçilik, azərbaycançılıq, dünyəvilik, müasirlik kimi ideyalar cəmiyyətin dünyagörüşü sisteminin ayrılmaz hissəsinə çevrilib, müasir Azərbaycanın mövcudluğunun və inkişafının ideya əsasını təşkil edib. Heydər Əliyev öz fəaliyyəti ilə Azərbaycanda demokratik cəmiyyətə keçid mexanizmini yaradıb, o, vətənpərvər cəmiyyət formalaşdırmaq kimi tarixi missiyanın öhdəsindən uğurla gəlib. Onun Azərbaycana rəhbərlik illəri tariximizdə milli intibah dövrü kimi əbədiləşib.

Dahi Heydər Əliyev ona görə Ümummilli Liderə çevrildi ki, onun əxlaqi keyfiyyətləri ilə siyasətçi və mütəfəkkir istedadı birləşdi. "Hakimiyyətə qarşı müxalifətdə olmaq olar, amma

xalqına, Vətəninə, onun yüksək əxlaqi keyfiyyətlərinə qarşı çıxmaq yolverilməzdir", - deyən ulu öndər Heydər Əliyev bu fikri dəfələrlə öz fəaliyyətində sübuta yetirdi. Buna görə də Azərbaycan tarixinin bütöv bir dövrü məhz Heydər Əliyevin adı ilə bağlıdır. Bu dövrün əsas ideoloji fəlsəfəsi isə azərbaycançılıqdır.

Meydana silahsız gələn bu insan qüdrətli Azərbaycan Ordusu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, ölkəmizdə böyük neft erasının əsasını qoydu. Azərbaycanın müasir tarixində misilsiz uğurlara imza atdı. Heydər Əliyev dövrü Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlu güclü dövlətçilik məktəbi də yaratdı. Heydər Əliyev ən mürəkkəb ziddiyyətli tarixi proseslərin gərdişindən bacarıqla baş çıxaran, ən çətin vəziyyətlərdə belə təmkinini itirməyən və dünyadakı geosiyasi dəyişiklikləri realistcəsinə qiymətləndirib mənsub olduğu xalqın, ölkəsinin çıxarlarını praqmatik ağılla və təcrübəsi ilə dəqiqliklə hesablayan bir lider idi. Ulu Öndərin müəyyənləşdirdiyi inkişaf strategiyası onun layiqli siyasi varisi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ümummilli lider Heydər Əliyevin ən böyük arzusu Qarabağın düşmən tapdağından azad edilməsi, ərazi bütövlüyümüzün bərpası idi. Ulu Öndərin illər öncə böyük uzaqgörənliklə dediyi bu sözlər yada düşür: "Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır. Nəyin bahasına olur-olsun".

Həmin vaxt 17 ildən sonra yetişdi. Dahi şəxsiyyətin arzusunu, vəsiyyətini onun layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı, qüdrətli sərkərdə İlham Əliyev yerinə yetirdi. Ulu Öndərin yaratdığı və inkişaf etdirdiyi Azərbaycan Ordusu Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə düşməni torpaqlarımızdan qovub çıxardı, üçrəngli bayrağımız yenidən Vətən torpaqlarında, Qarabağın mədəniyyət beşiyi olan Şuşada qürurla dalğalanmağa başladı. Bununla da "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur!" deyən Ulu Öndərin ən böyük arzularından biri də həyata keçdi, Azərbaycanın ərazi bütövlüyü təmin olundu. Xalqımız böyük dövlət xadimi, müasir müstəqil Azərbaycanın banisi Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünü 44 günlük Vətən müharibəsində qazanılmış şanlı Qələbənin doğurduğu sevinc hissi ilə qeyd edir.

# *Mehriban Əliyeva:* "Heydər Əliyevin nurlu, xoş xatirəsi qəlbimizdə daim yaşayacaqdır"




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə paylaşım edib.

"Heydər Əliyevin nurlu, xoş xatirəsi qəlbimizdə daim yaşayacaqdır. Xatirimizdədir, sevgi ilə anırıq".

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müraciəti

## *Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Füzuli rayonuna və Şuşa şəhərinə səfəri*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 10-da Füzuli rayonunda və Şuşa şəhərində səfərdə olublar.**

Dövlətimizin başçısı və birinci xanım əvvəlcə Füzuli şəhərində inşa olunacaq Peşə Liseyinin, 180 çarpayılıq Füzuli Rayon Mərkəzi Xəstəxanasının təməlinin qoyulması mərasimlərində iştirak edib, yeni yaradılacaq mərkəzi park kompleksinin ərazisində ağac əkiblər.

Həmçinin, Şuşa şəhərində inzibati binada aparılan son tamamlama və binanın ətrafında həyata keçirilən abadlıq işləri, Şirin su hamamının, məşhur tarzən, bəstəkar və Azərbaycan tarını təkmilləşdirən sənətkar Sadıqcanın vaxtilə yaşadığı evin bərpası ilə bağlı aparılan işlərlə tanışlıq olub.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Şuşada yeni inşa olunacaq məscid kompleksinin layihəsi barədə də məlumat verilərək layihə üzrə işlərin başa çatdığı və inşaat işlərinə başlanıldığı bildirilib.

Dövlətimizin başçısı və birinci xanım Şuşada Mehmandarovların malikanə kompleksində aparılan bərpa işlərinin hazırkı mərhələsi ilə də



tanış olub, "Shusha Boutique Hotel"in yerləşəcəyi ərazidə olublar.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa Realnı Məktəbində həyata keçiriləcək təmir-bərpa işləri ilə tanış olub, "Azərişıq" ASC-nin Şuşa Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak ediblər.

Sonra dövlətimizin başçısı şəhərdəki inzibati binanın qarşısında müraciət edib.

### Prezident İlham Əliyevin müraciəti

- Bu gün ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümüdür. Bu gün Füzuli və Şuşa şəhərlərinə səfər etmişəm. Keçən il mayın 10-da Naxçıvanda idim. Bu il mayın 10-da isə Qarabağdayam, işğaldan azad edilmiş Qarabağda.

Heydər Əliyev Azərbaycan xalqı qarşısında misilsiz xidmətlər göstərmişdir. Xalqımız üçün ən çətin anlarda xalqın yanında olmuşdur, Azərbaycan xalqını böyük bəlalardan, faciələrdən xilas etmişdir. Heydər Əliyev Azərbaycan dövlətçiliyinin, Azərbaycan dövlətinin banisidir, onun qurucusudur. O, öz həyatını xalqa həsr etmişdir və onun ən böyük arzusu Qarabağı yenidən azad görmək, ərazi bütövlüyümüzü bərpa etmək idi. O, öz fəaliyyəti ilə dövlət quruculuğu, ordu quruculuğu sahələrində gördüyü işlər nəticəsində dövlətin əsasları

yaradıldı və ölkəmiz inkişaf yoluna qədəm qoydu.

Əfsuslar olsun ki, atam bu günü görə bilmədi. Onun kimi yüz minlərlə azərbaycanlı bu günü görmədən həyatdan getdilər. Biz - onların davamçıları onların işini tamamladıq, atamın vəsiyyəti yerinə yetirildi. Bu gün atamın, bu günü görmədən həyatdan getmiş yüz minlərlə insanın, şəhidlərimizin ruhu şaddır. Biz onların ruhunu şad eləmişik.

2003-cü ildə Azərbaycan xalqı ilk dəfə mənə etimad göstərərək bir daha Ulu Öndərin siyasətinə sədaqətini nümayiş etdirdi. Mən isə öz növbəmdə demişdim ki, əgər xalq etimad göstərərsə, mən prezident kimi Heydər Əliyev yolu ilə gedəcəyəm, bu yoldan dönməyəcəyəm və ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyəm. Buna and içmişdim. Xoşbəxt adamam ki, bu anda sadiq oldum və bu gün Qarabağ azaddır. Bu gün Qarabağda və Zəngəzurda Azərbaycan bayrağı dalğalanır. Arxamdakı inzibati binanın damında Şuşanın alınmasından sonra Azərbaycan bayrağı qaldırılmışdır və binanın damından müzəffər Azərbaycan əsgərləri Şuşanın azad olunması ilə bağlı mənə raport vermişlər. Bu gün mayın 10-da mən yenidən Ulu Öndərin xatirəsinə Azərbaycan xalqının ehtiramını ifadə edərək Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bundan sonra da xalqımızın, dövlətimizin inkişafı, müstəqilliyimizin möhkəmləndirilməsi üçün əlimdən gələni əsirgəməyəcəm.

Bu gün Qarabağ dirçəlir. Bu gün Füzulidə və Şuşada bir neçə tədbirdə iştirak etmişəm. Bütün bölgələrdə quruculuq-bərpa işləri sürətlə gedir, azad edilmiş bütün ərazilərdə geniş-miqyaslı abadlıq-quruculuq və bərpa işləri aparılır. Əslində, şəhərlər, kəndlər yenidən qurulur. Çünki işğal dövründə düşmən bütün şəhər və kəndlərimizi yerlə-yeksan etmişdir, bütün tarixi abidələrimizi dağıtmışdır, Qarabağın, bölgənin, Qafqazın incisi olan Şuşa kimi şəhəri bərbad hala qoymuşdur. Biz - bu torpaqların sahibləri artıq qayıtmışıq və bu torpaq, bu səma bunu görür. Görür ki, hər gün inkişafla bağlı daha bir addım atılır. Hər gün daş üstə bir daş qoyulur. Biz azad edilmiş bütün torpaqları bərpa edəcəyik, bərpa edirik.

Bu gün mayın 10-da mən mütləq burada olmalı idim. Ulu Öndərin xatirəsinə öz ehtiramımı və Azərbaycan xalqının ehtiramını buradan ifadə etməli, bir daha deməli idim ki, biz bu torpaqlara, doğma torpaqlarımıza əbədi qayıtmışıq və burada əbədi yaşayacağıq.

Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

***

Mayın 12-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalının açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva festivalın açılışında iştirak ediblər.

Şuşa şəhərinin 270 illiyi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə elan edilən "Şuşa İli"ndə keçirilən V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Şuşa Şəhəri Dövlət Qoruğu tərəfindən təşkil olunub. Festivala xarici ölkələrdən müxtəlif folklor üslublarında çıxış edən musiqiçilər, rəqs kollektivləri, həmçinin Azərbaycanın müxtəlif regionlarından folklor kollektivləri qatılıblar.

Festivalın açılış konserti Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının ifasında "Vətən süitası" ilə başlayıb.

Sonra Əməkdar artistlər İlkin Əhmədov, Babək Niftəliyev və Səbinə Ərəblinin ifasında "Qarabağ şikəstəsi"nin sədaları Şuşa dağlarına yayılıb.

Vətən müharibəsində Azərbaycana əsl qardaşlıq dəstəyi göstərən Türkiyəni festivalda Türk Dünyası Musiqi və Xalq Rəqsləri Ansamblı təmsil edib. Ansamblın ifasında "Van yöresi" xalq rəqsi maraqla qarşılanıb.

Azərbaycanın Xalq artisti Polad Bülbüloğlu "Çal oyna" xalq mahnısını, "Cəngi" Estrada Folklor Rəqs Ansamblı "Tənzərə", Əməkdar artist Şirzad Fətəliyev və nəfəs alətləri qrupu isə "Turacı" xalq rəqslərini ifa ediblər.

Malinin Şeyx Tidiane Sek etnocaz qrupu "Sanqa Bo" kompozisiyasını, "Pakistan rəngləri" qrupu "Bhanqra" rəqsini, Melitassi Gürcü Folklor Rəqs Ansamblı "Svanuri" rəqsini təqdim ediblər.

Azərbaycan Dövlət Rəqs

Ansamblı avar xalq rəqsini, Tunisin "Yuma" dueti "Smek" kompozisiyasını, Özbəkistanın Baxor Dövlət Rəqs Ansamblı isə "Bayot" xalq rəqsini ifa ediblər.

Daha sonra Əməkdar mədəniyyət işçisi aşıq Samirə Əliyeva və aşıq Əli Tapdıqoğlu "Qarabağ qaytağısı" saz havasını, Xalq artisti Polad Bülbüloğlu və Bakı Xoreoqrafiya Akademiyasının "Xarıbülbül" rəqs ansamblı "Qarabağım" mahnısını səsləndiriblər.

Açılış konserti Əməkdar artist Aybəniz Haşımovanın və "Bülbüllər" qrupunun ifasında "Vətəndən pay olmayır" mahnısı ilə başa çatıb.

Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində keçirilən V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı mayın 14-də başa çatıb. Üç gün davam edən sayca beşinci festival çərçivəsində milli rəqs, muğam sənəti təqdim olunub, ölkəmizin müxtəlif regionlarını və milli azlıqları təmsil edən folklor kollektivlərinin konsertləri keçirilib, Azərbaycan xanəndələrinin müxtəlif illərdə Şuşada lentə alınmış ifalarından ibarət videoçarxlar nümayiş etdirilib, klassik musiqi əsərləri təqdim olunub.





*Şuşa şəhəri Cıdır düzündə V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı*

# Prezident İlham Əliyevin Türkiyəyə işgüzar səfəri

## *Dövlətimizin başçısı Rize-Artvin Hava Limanının açılış mərasimində iştirak edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə mayın 14-də qardaş ölkədə işgüzar səfərdə olub.**

Dövlət başçıları Rize-Artvin Hava Limanının açılış mərasimində iştirak ediblər. Yeni hava limanına ilk dəfə göyərtələrində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Azərbaycan Prezidenti İlham Əliyevin olduqları təyyarələr eniş edib.

Hər iki ölkənin dövlət başçılarının təyyarələri nəhəng su tağının altından keçib.

Rize-Artvin Hava Limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Azərbaycan Prezidenti İlham Əliyevi Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan qarşılayıb.

Açılış mərasiminin keçirildiyi məkana gələn qardaş ölkələrimizin prezidentlərinin əvvəlcə görüşü olub. Görüşdə Azərbaycanla Türkiyə arasında ikitərəfli dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirilib, siyasi əlaqələrin yüksək səviyyədə olduğu qeyd olunaraq bu baxımdan Şuşa Bəyannaməsinin önəmi xüsusi vurğulanıb.

Prezident İlham Əliyev Rize-Artvin Hava Limanının açılışında iştirak etmək üçün dəvətə görə Rəcəb Tayyib Ərdoğana təşəkkür edərək, Türkiyədə digər sahələrdə olduğu kimi, nəqliyyat və infrastruktur sahəsində də genişmiqyaslı işlərin həyata keçirildiyini məmnunluqla qeyd edib və yeni hava limanının açılışı münasibətilə

təbriklərini çatdırıb.

Dövlət başçıları energetika, nəqliyyat, enerji təhlükəsizliyi ilə bağlı əməkdaşlıq məsələlərini, həmçinin bölgədəki vəziyyəti müzakirə ediblər. Söhbət zamanı postmünaqişə dövrü, Azərbaycan ilə Ermənistan və Türkiyə ilə Ermənistan arasında əlaqələrin normallaşdırılması ilə bağlı fikir mübadiləsi aparılıb. Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı Azərbaycana səfərə dəvət edib. Dəvət minnətdarlıqla qəbul olunub.

***

Türkiyənin Milliyyətçi Hərəkat Partiyasının sədri Dövlət Bağçalı Prezident İlham Əliyevə ulu öndər Heydər Əliyevlə görüşlərini əks etdirən fotoları və üzərində "Qarabağ Fatehi" yazısı olan tapança hədiyyə edib.

***

Sonra Rize-Artvin Hava Limanının təntənəli açılış mərasimi keçirilib. Dövlət başçıları mərasimdə çıxış ediblər. Prezident İlham Əliyev hava limanının açılışının Türkiyədə gedən çox xoş və uğurlu inkişafın təzahürü olduğunu, qardaş Türkiyənin gündən-günə gücləndiyini, sürətlə inkişaf etdiyini bildirib, bunun təməlində aparılan siyasət, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın böyük əməyinin, zəhmətinin dayandığını vurğulayıb: "Türkiyə bu gün nəinki dünya miqyasında böyük güc mərkəzinə çevrilib, söz sahibi olub, eyni zamanda, ölkə içində də böyük layihələr icra etməyə qadirdir. Bunların arasında xüsusilə insanlara xidmət göstərən layihələri qeyd etmək istərdim. Hava limanları, su anbarları, yollar, körpülər, məktəblər, xəstəxanalar - bütün bunlar Türkiyənin inkişafını, gücünü göstərən amillərdir və bütün bu işlərin mərkəzində insan amili dayanır, dövlət siyasəti dayanır".














Dövlətimizin başçısı tədbirdə iştirakının Türkiyə-Azərbaycan birliyinin növbəti təzahürü olduğunu, hər zaman - xoş günlərdə, yaxşı günlərdə, çətin günlərdə də bir yerdə olduğumuzu söyləyərək İkinci Qarabağ savaşının bunu bir daha bütün dünyaya göstərdiyini bildirib, Savaşın ilk saatlarından son gününə qədər qardaş Türkiyə Prezidentinin və xalqının bizim yanımızda olduğunu diqqətə çatdırıb.

Bildirib ki, İkinci Qarabağ savaşı bizim müştərək, ortaq şanlı tariximizdir. Otuzillik işğala son qoyduq və savaşın ilk günündə hörmətli Prezident, qardaşım Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır" deməsi bir çoxları üçün ciddi mesaj oldu. Savaşın son dəqiqəsinə qədər - Şuşa şəhərində bayrağımız ucalana qədər Türkiyə bizim arxamızda idi, bizə arxa idi, dayaq idi və Azərbaycan xalqı heç vaxt bu qardaşlığı unutmayacaq.

Azərbaycan Prezidenti ölkələrimizin bu gün də bir yerdə olduğunu, Qarabağın bərpası işində bərabər, çiyin-çiyinə çalışdığını vurğulayıb.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölkəsinin qürurverici əsərləri arasında yer alan Rize-Artvin Hava Lima-

nının xeyirli olmasını diləyərək xalqa xidmət siyasətinin son nümunəsi olan bu hava limanının adi bir layihə olmadığını bildirib: "Dünyada dəniz üzərində inşa edilən cəmi beş hava limanı var. Bunların açılışını etdiyimiz Rize-Artvinlə birlikdə ikisi ölkəmizdədir. Beləliklə, ölkəmizdəki hava limanlarının sayını 26-dan 58-ə çatdırdıq".

Türkiyə Prezidenti ötən illərdə ölkəsinin əsaslı və kompleks inkişaf yolu keçdiyini, iqtisadiyyatın hərtərəfli inkişaf etdiyini, o cümlədən nəqliyyat sahəsinin köklü inkişafı üçün silsilə layihələrin reallaşdırıldığını bildirib, təhsil, səhiyyə, abadlaşdırma, yeni yaşıllıqların və istirahət ocaqlarının yaradılması üçün də çoxsaylı layihələrin həyata keçirildiyini qeyd edib.

Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyədə xalqın rifah halının daha da yaxşılaşdırılmasının maksimum diqqətdə saxlandığını və bu sahədə ardıcıl tədbirlərin reallaşdırıldığını vurğulayıb, ölkəsinin beynəlxalq səviyyədə də milli maraqlarını daim inamla müdafiə etdiyini bildirib. O, hərtərəfli dövlət siyasəti sayəsində Türkiyənin inamla və qətiyyətlə irəlilədiyini, dünyanın ən güclü və beynəlxalq səviyyədə söz sahibi olan ölkələrindən birinə çevrildiyini vurğulayıb, Türkiyənin bütün bölgələri kimi, Rize və Artvin bölgələrinin də kompleks inkişafı üçün ardıcıl tədbirlərin davam etdirildiyini söyləyib.

***

Azərbaycan Prezidenti İlham Əliyevə və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana xatirə hədiyyələri təqdim olunub. Birgə foto çəkdirilib. Sonra Rize-Artvin Hava Limanının açılışını bildirən lent kəsilib. Daha sonra birgə naharda dövlət başçıları arasında görüş davam edib.

Elə həmin gün Rize-Artvin Hava Limanında Prezident İlham Əliyevin yolasalma mərasimi olub. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dövlətimizin başçısını yola salıb.

# Prezident İlham Əliyev Belçika Krallığının paytaxtı Brüsseldə işgüzar səfərdə olub







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə mayın 22-də Belçika Krallığının paytaxtı Brüsseldə işgüzar səfərdə olub.**

Səfər zamanı dövlət başçısının və Avropa İttifaqı Şurası Prezidentinin təkbətək görüşü olub.

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel dövlətimizin başçısı İlham Əliyevi qarşılayıb, birgə foto çəkdirilib.

Görüşdə Prezident İlham Əliyev Şarl Mişelin Ermənistan ilə Azərbaycan arasında Sülh müqaviləsinin hazırlanması, iki ölkənin münasibətlərinin normallaşdırılması, nəqliyyat dəhlizlərinin açılması, sərhədlərin delimitasiyası və demarkasiyası proseslərinə verdiyi dəstəyi yüksək qiymətləndirib.

Bu formatda Avropa İttifaqının təşəbbüsü və vasitəçiliyi ilə üçüncü dəfədir ki, görüşün keçirildiyini qeyd edən dövlətimizin başçısı bu görüşün təşkilinə görə Şarl Mişelə təşəkkürünü bildirib.

Dövlətimizin başçısı Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin imzalanması üçün Azərbaycan tərəfindən beynəlxalq hüquqa

əsaslanan 5 prinsipin təqdim olunduğunu qeyd edib və bu prinsiplərin sülh müqaviləsinin hazırlanmasında əsas rol oynadığını vurğulayıb.

İki ölkə arasında sülh müqaviləsinin hazırlanması prosesinin sürətli şəkildə həyata keçiriləcəyinə ümidvar olduğunu söyləyən Prezident İlham Əliyev bu il aprelin 6-da Azərbaycan, Ermənistan və Avropa İttifaqı arasında keçirilmiş görüşün nəticələrinə uyğun olaraq, Azərbaycanın aprelin sonunda sülh müqaviləsi üzrə danışıqlara başlamaq üçün İşçi Qrupunun tərkibini, həmçinin sərhədlərin delimitasiyası üzrə milli komissiyanın tərkibini müəyyənləşdirdiyini və bu xüsusda danışıqlara hazır olduğunu bir daha qeyd edib.

Azərbaycan Prezidenti İlham Əliyev, həmçinin işğaldan azad edilmiş ərazilərimizdə mina problemi və Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab olunan 4 minə yaxın şəxsin taleyinə aydınlıq gətirilməsinin vacibliyini bir daha vurğulayıb. 10 noyabr Bəyanatının bütün müddəalarının Ermənistan tərəfindən icra olunmasının zəruriliyini diqqətə çatdırıb.

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Avropa İttifaqının Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesinə dəstək vermək əzmini bir daha ifadə edib, vasitəçilik səylərini davam etdirəcəyini bildirərək bu formatda keçirilmiş əvvəlki görüşlərin əhəmiyyətinə toxunub. Şarl Mişel Brüsseldə bu formatda görüşdə iştirakına görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

Mayın 22-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə görüşü olub.

# Qarabağ və Şərqi Zəngəzur yenidən dirçəlir

## *Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli, Cəbrayıl və Zəngilan rayonlarında səfərdə olublar*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva mayın 26-da Füzuli, Cəbrayıl və Zəngilan rayonlarında səfərdə olublar.**

Dövlətimizin başçısı və birinci xanım Füzuli rayonunda Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) tikintisi ilə tanış olublar.

Məlumat verilib ki, Azərbaycan və Türkiyə prezidentləri tərəfindən təməli qoyulan və ümumi uzunluğu 123,6 kilometr olan bu yolun tikintisi sürətlə davam etdirilir. Başlanğıcını Füzuli rayonunun Əhmədbəyli kəndindən götürən bu yol birinci texniki dərəcəyə uyğun inşa edilir. Yolun ilk 77 kilometrlik hissəsi altı, qalan 46,6 kilometrlik hissəsi isə dörd hərəkət zolaqlı olacaq. Yol boyunca üç avtomobil tuneli inşa edilir. Tunellərdən birində qazma işləri artıq yekunlaşıb, hazırda beton işləri icra olunur. Digər iki tuneldə isə qazma işləri davam etdirilir. Həmçinin bu yolun üzərində 15 avtomobil körpüsü, 5 yolötürücü və 54 yeraltı keçidin inşası nəzərdə tutulub. Hazırda 14 körpü, 3 yolötürücü və 38 yeraltı keçidin tikintisi aparılır.

Bu yol Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun bir hissəsi olmaqla, Zəngilanı Azərbaycanın digər rayonları və Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək baxımından çox böyük əhəmiyyətə malikdir.

Sonra Cəbrayıl rayonuna gələn dövlətimizin başçısı və birinci xanım Horadiz-Ağbənd dəmir yolu xəttinin Cəbrayıl rayonu ərazisində Soltanlı stansiyasının təməlqoyma mərasimində iştirak ediblər. Təkxətli dəmir yolunun uzunluğu 110,4 kilometrdir. Layihəyə əsasən yol boyunca 9 stansiyanın (Ho-




*Zəngəzur dəhlizinin tikintisi ilə tanışlıq*




*Horadiz-Ağbənd dəmir yolunun Cəbrayıl rayonu ərazisində Soltanlı stansiyasının təməlinin qoyulması*

radiz, Mərcanlı, Mahmudlu, Soltanlı, Qumlaq, Həkəri, Mincivan, Bartaz, Ağbənd), 3 tunelin, 41 körpünün, 7 yolötürücünün, 300-ə yaxın süni mühəndis qurğusunun, rabitə və işarəvermə sisteminin, elektrik təsərrüfatının tikintisi planlaşdırılır. Yol boyunca 85 kilometr ərazi minalardan təmizlənib və proses davam edir. Dəmir yolu xəttinin yan yollarla birlikdə 60 kilometrlik hissəsi tamamlanıb.

Prezident İlham Əliyev və birinci xanım "Azərenerji" ASC-nin 330/110 kilovoltluq "Cəbrayıl" enerji qovşağının təməlqoyma mərasimində də iştirak ediblər.

Daha sonra Zəngilan rayonuna səfər edən dövlətimizin başçısı və birinci xanım Zəngilan Beynəlxalq Hava Limanında aparılan tikinti işlərinin gedişi ilə tanış olublar. Bildirilib ki, perronda torpaq işləri tamamlanıb, uçuş-enmə zolağında asfalt-beton işləri davam edir. Zolağın uzunluğu 3000 metr, eni isə 60 metr olacaq. Bu hava limanı bütün növ təyyarələri, o cümlədən ağır yük təyyarələrini qəbul edəcək.

Rayonda həmçinin, "Paşa Holding" MMC-nin dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən Zəngilan məscidi inşa olunur. Tikinti işlərinin gedişi ilə tanış olan dövlətimizin başçısına və birinci xanıma aparılan işlər barədə məlumat verilib.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İşğal və Zəfər muzeyləri kompleksinin təməlqoyma mərasimində iştirak ediblər.

Məlumat verilib ki, Zəngilan İşğal və Zəfər muzeyləri kompleksi layihəsinin əsas məqsədi müharibənin ətraf mühitə dağıdıcı təsirləri barədə məlumatlılığı artırmaqdır. Kompleks İşğal Muzeyi, Zəfər Muzeyi və dağıntıları əks etdirən Memorial Parkdan ibarət olacaq.








*Zəngilan məscidinin tikinti işləri ilə tanışlıq,*
*İşğal və Zəfər muzeyləri kompleksinin təməlinin qoyulması*







*Zəngilan rayonunun Ağalı kəndində "Ağıllı kənd" layihəsinin açılışı*

Daha sonra Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Zəngilan şəhərinin Baş planı təqdim olunub. Dövlət başçısı və birinci xanım "sa_partners" şirkətinin nümayəndələri ilə də söhbət edib, Oxçuçayın mənzərəsini seyr ediblər.

Mayın 27-də Zəngilan rayonunda intensiv meyvə bağı ilə tanış olan dövlətimizin başçısına və birinci xanıma bağda görülən işlər barədə məlumat verilib, burada 40 hektar sahədə intensiv ərik bağı salındığı, hər biri 10 hektar olmaqla 4 çeşiddə ting əkildiyi bildirilib. İntensiv meyvə bağında yetişdirilən məhsulu saxlamaq və çeşidləmək üçün Zəngilan Logistika Mərkəzi tikiləcək.

Həmin gün Zəngilan rayonunun Ağalı kəndində "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimi olub.

Mərasimdə iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva əvvəlcə Ağalı kənd meydanı ilə tanış olublar. Kənd meydanında otuz ilə yaxın müddətdə işğal altında qalmış əzəli torpaqlarımızda sülhün əbədi təmin olunmasını təcəssüm etdirən göyərçin abidə-fəvvarə kompleksi yaradılıb. Dövlətimizin başçısı və birinci xanım fəvvarəni işə salıb, sonra kənd meydanında yaradılmış Dövlət Xidmətləri Mərkəzi, Kənd ağıllı idarəetmə mərkəzi (situasiya mərkəzi), "Kapital Bank"ın Zəngilan filialı, kənd təsərrüfatı təyinatlı laboratoriyalar, baytarlıq və bitki mühafizə idarələri və digər ictimai iaşə obyektləri ilə də tanış olublar.

Ağalı kəndində müasir şəhərsalma standartları tətbiq olunub. Küçələrin "ağıllı" işıqlandırılması, isti və soyuğadavamlı ekoloji evlərin inşası, məişət tullantılarının idarə olunması, günəş panellərinin quraşdırılması kimi amillər bu konsepsiyanın tərkib hissələridir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "golf car"la kəndin ərazisini gəzib, 5 nömrəli üçotaqlı evə baxıb, "Gillmed" tikiş fabriki, ailə sağlamlıq mərkəzi (tibb məntəqəsi), uşaq bağçası və kənd orta məktəbi ilə tanış olub, "Salam Doktor" platforması üzərindən əhaliyə xidmət göstərən azərbaycanlı həkimlərlə videobağlantı vasitəsilə söhbət ediblər.

Dövlətimizin başçısına və birinci xanıma "Ağıllı kənd" layihəsinə dair stendin təqdimatında "Ernst & Young" şirkəti ilə birgə hazırlanmış "İqtisadi

səmərəliliyin təhlili"nin əsas məqamları, kəndin perspektiv inkişaf planı və kənd bazarının planı, həmçinin şəhər evi tipli üç nəfərədək ailələrin məskunlaşması üçün evlərin planı barədə məlumat verilib.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağalı kəndin sakinləri ilə görüşüblər. Dövlətimizin başçısı görüşdə çıxış edib, xatirə şəkli çəkilib.

Görüşdən sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Aqroservis" ASC tərəfindən təqdim edilən "ağıllı kənd təsərrüfatı" texnikaları, "Arximed" tipli hidroelektrik stansiya, alternativ enerjinin istehsalı üçün süni göl və 62 nömrədən ibarət otel kompleksində aparılan işlərlə tanış olublar.

Ağalı kəndində "Ağıllı kənd" konsepsiyasının hər üç komponenti - ağıllı dövlət idarəçiliyi, ağıllı infrastruktur və xidmətlər, eyni zamanda, ağıllı təsərrüfat və biznes mühiti yaradılıb.

# Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana işgüzar səfəri

**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mayın 28-də Azərbaycan Respublikasında işgüzar səfərdə olub.**

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Bakıda ilk dəfə keçirilən "TEKNOFEST Azərbaycan" Aerokosmik və texnologiya festivalında iştirak ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, birinci xanımlar Mehriban Əliyeva və Əminə Ərdoğan festivalın keçirildiyi məkana gəliblər.

Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktar və dünyaşöhrətli türkiyəli alim, Nobel mükafatı laureatı professor Əziz Səncər çıxış ediblər. Bildirilib ki, "TEKNOFEST" müstəqilliyi, qardaşlığı, elmi və əxlaqı əldə rəhbər tutan bir ruhdur. Bu ruh ölkələrimizi tam müstəqil və firavan edəcək, səmalarımızı, dənizlərimizi, torpaqlarımızı qoruyub




*"TEKNOFEST Azərbaycan" Aerokosmik və texnologiya festivalı*

dirçəldəcək yüksək texnologiyaları bütün cəmiyyətlə birlikdə inkişaf etdirmək səfərbərliyidir.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış ediblər. Çıxışlardan sonra festivalın müxtəlif müsabiqələr üzrə qaliblərinin mükafatlandırma mərasimi olub. Mükafatları qaliblərə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Azərbaycan Prezidenti İlham Əliyev və Nobel mükafatı laureatı professor Əziz Səncər təqdim ediblər.

Dövlət başçıları və Əziz Səncər xatirə fotosu çəkdiriblər və onlara "TEKNOFEST Azərbaycan" festivalının xatirə





*Bakıda 7 saylı “ASAN xidmət” mərkəzinin və “Bilim Bakı” mərkəzinin açılışı*

hədiyyələri təqdim olunub.

Birinci xanımlar Mehriban Əliyeva və Əminə Ərdoğan, həmçinin Sümeyyə Bayraktar və Arzu Əliyeva, sonra isə hər iki qardaş ölkənin rəsmi nümayəndələri birgə foto çəkdiriblər.

Mərasimdən sonra prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan, birinci xanımlar Mehriban Əliyeva və Əminə Ərdoğan sərgi zonasındakı pavilyonlarla tanış olublar.

"TEKNOFEST Azərbaycan" Aerokosmik və texnologiya festivalı çərçivəsində Azərbaycan və Türkiyə pilotlarının iştirakı ilə keçirilən aviaşou bu mötəbər tədbirin ən yaddaqalan hadisələrindən biri olub. Dövlət başçıları və birinci xanımlar, qardaş ölkələrimizin rəsmi nümayəndə heyətləri və festival iştirakçıları aviaşounu izləyiblər.

Mayın 28-də Bakıda 7 saylı "ASAN xidmət" mərkəzinin və "Bilim Bakı" mərkəzinin açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan açılışda iştirak ediblər.

Məlumat verilib ki, paytaxtda tikilmiş yeni "ASAN Həyat" Kompleksi üç hissədən ibarətdir. Kompleksdə 7 saylı Bakı "ASAN xidmət" mərkəzi və "INNOLAND", "Bilim Bakı" mərkəzi və ASAN İnnovativ İnkişaf Mərkəzi, həmçinin Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Aparatının yeni inzibati binası yerləşir.

Dövlət başçıları "ASAN xidmət" və "Bilim Bakı" mərkəzlərini işə salıb, sonra "Bilim Bakı" mərkəzi ilə tanış olublar. Bildirilib ki, Mərkəzin fəaliyyəti ümumtəhsil mərkəzlərinin 6-14 yaş arası şagirdlərinin elmə, innovasiyaya və texnologiyaya marağını və biliklərini artırmağa yönəlib, elmi biliklərin təcrübədə necə tətbiq olunduğunu müşahidə etmək imkanı yaradır. Mərkəzdə hər biri 20 şagird yerlik 6 laboratoriya fəaliyyət göstərəcək. Bunlar təbiət elmləri, texnologiya, riyaziyyat, astronomiya, kosmos və aviasiya, dizayn və sahibkarlıq laboratoriyalarıdır.

Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan laboratoriyalarda təcrübə aparan şagirdlərlə söhbət ediblər.

Səfər zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın görüşü olub.

Görüşdə Azərbaycan-Türkiyə ikitərəfli dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfərinin əlaqələrimizin daha da möhkəmlənməsi işinə töhfə verəcəyinə əminlik ifadə olunub.

Söhbət zamanı 28 May - Müstəqillik Günündə Azərbaycan və Türkiyə dövlət başçılarının bir yerdə olması qardaşlığımızın rəmzi kimi qiymətləndirilib. Dövlət başçıları Bakıda keçirilən "TEKNOFEST Azərbaycan" festivalının önəmini qeyd edib və bu tədbiri yüksək səviyyədə olan əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndiriblər.

Görüşdə əməkdaşlığımızın bundan sonra da genişlənəcəyi qeyd olunub, ikitərəfli münasibətlərin perspektivləri ilə bağlı məsələlər müzakirə edilib.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan ilə nahar yeməyi olub.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Respublikasına işgüzar səfəri mayın 28-də başa çatıb.

# 28 MAY - MÜSTƏQİLLİK GÜNÜDÜR!

## Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət






**Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə Bakının İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Müstəqillik Günü münasibətilə ziyarət edib. Dövlətimizin başçısı abidənin önünə gül dəstəsi qoyub.**

Yüz dörd il əvvəl - 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ölkəmizin həyatına böyük tarixi hadisə kimi daxil olub. Müstəqil, azad, demokratik respublika qurmaq məqsədini qarşıya qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirdi. 1918-ci il mayın 28-də qəbul edilən İstiqlal Bəyannaməsindən - Əqdnamədən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik hisslərini daha da gücləndirdi.

Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti mürəkkəb şəraitdə üzərinə götürdüyü çətin tarixi vəzifəni şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, Ana dili dövlət dili elan edildi, ordu quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi. Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.

Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Dünya birliyi tərəfindən tanınan Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində ölkəmizin beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayında bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.

XX əsrin sonlarında yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub

saxlamağı bacardı. Xalqın istəyi və tələbi ilə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər gördü, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etdi. Beləliklə, Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti quruldu və sürətli inkişaf yoluna qədəm qoydu. Ulu Öndərimiz dəfələrlə bildirmişdi ki, biz bu gün demokratik Azərbaycan dövlətini qururuqsa, ayağa qaldırırıqsa, Xalq Cümhuriyyətinə borcluyuq.

Ümummilli Liderin bu siyasətini Prezident İlham Əliyev uğurla davam etdirir. Məhz bu siyasət nəticəsində bu gün müasir Azərbaycan 104 il əvvəl Xalq Cümhuriyyəti qurucularının arzuladığı, xəyal etdiyi qüdrətli dövlətə, dünyada söz və nüfuz sahibinə çevrilib. Fəxrlə qeyd edə bilərik ki, hazırda Azərbaycan dünyanın müstəqil siyasət yürüdən azsaylı ölkələrindən biridir. Bir sözlə, ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi müdrik və qətiyyətli siyasət sayəsində müstəqilliyimiz əbədi, dönməz xarakter alıb.

Prezident İlham Əliyev müsəlman Şərqində ilk parlamentli respublika olan Cümhuriyyətin irsinin təbliğini daim diqqət mərkəzində saxlayır. Dövlətimizin başçısının sərəncamları ilə 2018-ci il ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olundu və Cümhuriyyətin 100 illik yubileyi təntənəli şəkildə qeyd olundu. Məhz Prezident İlham Əliyevin təşəbbüsü ilə qəbul olunan "Müstəqillik Günü haqqında" qanunla mayın 28-i Müstəqillik Günü elan edildi.

Azərbaycan xalqı ikinci ildir ki, 28 May - Müstəqillik Gününü qalib xalq kimi qarşılayır. Bu əziz bayram erməni işğalından azad edilən torpaqlarımızda da qeyd olunur. Üçrəngli bayrağımız işğaldan azad edilmiş ərazilərimizdə qürurla dalğalanır. Müzəffər Ali Baş Komandan İlham Əliyev ənənəsinə sadiq qalaraq mayın 27-də - Müstəqillik Günü ərəfəsində Zəngilana səfər etdi. Rayonun Ağalı kəndində "Ağıllı kənd" layihəsinin birinci mərhələsinin açılışı oldu. Bununla da "Böyük Qayıdış" adlanan prosesə start verildi. Azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri də məhz siyasi-iqtisadi müstəqilliyimizin nəticəsi, dövlətimizin gücünün göstəricisidir. Doğrudan da Azərbaycan tarixin heç bir dövründə indiki qədər güclü və qüdrətli olmayıb.

Bu gün Müstəqillik Günü xüsusi əhval-ruhiyyə, böyük sevinc və qürur hissi ilə qeyd olunur. Qardaş ölkənin - Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın bu əlamətdar gündə Azərbaycana gəlməsi və Müstəqillik Günündə xalqımızla bərabər olması milli bayramımıza xüsusi dəyər qatır, Azərbaycan-Türkiyə qardaşlığını bütün dünyaya bir daha nümayiş etdirir.

Müstəqil Azərbaycan hər birimizin qürur mənbəyidir. Müstəqillik ən böyük dəyərimiz və sərvətimizdir. Xalqımız qanı-canı bahasına əldə etdiyi bu sərvəti əzmlə qoruyur və əbədi qoruyacaq.

# Birinci vitse-prezident Mehriban Əliyeva Müstəqillik Günü ilə bağlı paylaşım edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində 28 May - Müstəqillik Günü ilə bağlı paylaşım edib.**

"Bütün Azərbaycan xalqını 28 May - Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm, hər bir Azərbaycan vətəndaşına möhkəm cansağlığı, sevinc, sevgi və səadət arzulayıram! Qoy müstəqilliyimiz əbədi olsun! Uca Tanrı doğma Azərbaycanımızı qorusun!".



# Müstəqillik Günündə ölkə Prezidentinin növbəti humanist qərarı

*Dövlət başçısı məhkum edilmiş bir sıra şəxslərin əfv olunması barədə Sərəncam imzalayıb*



**Xalqımızın müstəqillik tarixinin başlanğıcı olan 1918-ci il may ayının 28-də yaranmış Şərqin ilk demokratik dövləti - Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından 104 il ötür. Ölkə Prezidentinin qanunvericilik təşəbbüsü ilə 2021-ci ilin oktyabrında qəbul olunmuş "Müstəqillik Günü haqqında" Qanunla dövlətçilik tariximizdə mühüm əhəmiyyətə malik olan müstəqilliyin əldə edilməsi və bərpası kimi əlamətdar günlərə onların mahiyyəti və məzmununa uyğun daha dəqiq qiymət verilib.**

Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı 28 May tarixini bu il ilk dəfə Müstəqillik Günü kimi qeyd edən xalqımız istiqlaliyyətimizin ildönümünü Müzəffər Ali Baş Komandan İlham Əliyevin yenilməz sərkərdəliyi ilə Vətən müharibəsində Böyük Qələbə çalaraq ərazilərimizi azad etmiş qalib xalq kimi qarşılayır.

Dövlət başçısının rəhbərliyi ilə bu gün ölkəmiz müstəqillik illərinin ən qüdrətli və parlaq dövrünü yaşayır, ölkəmizin hərtərəfli davamlı tərəqqisi təmin olunur, vətəndaşların sosial rifahı yüksəlir, azad edilmiş doğma torpaqlarımız yenidən dirçəlir.

Ulu öndər Heydər Əliyevin humanizm siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir, törətdiyi cinayət əməlindən peşmançılıq keçirən, azad cəmiyyətə qovuşmaq istəyən məhkumların müraciətləri nəzərə alınaraq bayram və əlamətdar günlərdə əfv və amnistiya aktları qəbul olunur.

Son 18 ildə dövlət başçısının imzaladığı əfv sərəncamları ilə 6.000-ə yaxın məhkum əhatə olunub. Hər zaman mərhəmət, insanpərvərlik məfkurəsindən çıxış edən respublikamızın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə ötən dövrdə 40 mindən çox insanı əhatə edən amnistiya aktları qəbul olunub.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin təşəbbüsü ilə Zəfər Günü münasibətilə elan edilmiş amnistiya aktı 17 mindən çox şəxsə şamil olunmaqla minlərlə ailəyə böyük sevinc hissi bəxş edib.

Müstəqillik Günü ərəfəsində dövlət başçısının humanistliyinin əyani təzahürü olaraq növbəti Əfv Sərəncamı imzalanıb. Cəmiyyətimizdə böyük rəğbətlə qarşılanan Əfv Sərəncamının icrası Ədliyyə Nazirliyi tərəfindən təxirəsalınmadan və mütəşəkkil qaydada təmin edilib.

Sərəncamın icrası Milli Məclisin deputatlarının, Ombudsmanın, Əfv Məsələləri Komissiyasının üzvlərinin, Ədliyyə Nazirliyi yanında İctimai Şuranın, vətəndaş cəmiyyətinin və media nümayəndələrinin iştirakı ilə Penitensiar Xidmətin tabeliyindəki müxtəlif cəzaçəkmə müəssisələrində, habelə alternativ cəzaların icrasını təmin edən Probasiya Xidmətinin müvafiq yerli qurumlarında həyata keçirilib.

Ümumilikdə 213 nəfər məhkumla əhatə olunan Sərəncamla 168 nəfər, o cümlədən 1 nəfər ömürlük azadlıqdan məhrumetmə cəzasından azad edilib, 36 nəfərin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılıb.

Probasiya qurumlarında isə azadlığın məhdudlaşdırılması cəzasına məhkum olunmuş 6 nəfər cəzadan azad olunaraq onlara tətbiq edilmiş elektron nəzarət vasitələri dərhal çıxarılıb, həmçinin şərti məhkum olunmuş 3 nəfər cəzadan azad

olunub. Həmin şəxslərin ölkədən getmək hüquqlarına qoyulmuş müvəqqəti məhdudiyyət götürülərək onlar Probasiya Xidmətinin qeydiyyatından çıxarılıblar.

Əfv Sərəncamının icrası ilə bağlı keçirilən mərasimlərdə çıxış edənlər Müstəqillik Günü münasibətilə məhkumlara və onların ailə üzvlərinə təbriklərini ifadə edib, bu humanist aktın mahiyyətini və əhəmiyyətini diqqətə çatdırıblar.

Azadlığa çıxan şəxslər və onları qarşılamağa gələn ailə üzvləri, yaxınları göstərdiyi humanistliyə və əlamətdar bayram ərəfəsində əfv olunmalarına görə dövlətimizin başçısı İlham Əliyevə və respublikamızın Birinci vitse-prezidenti Mehriban Əliyevaya minnətdarlıqlarını bildiriblər.

Tədbirlərdə əfv olunan şəxslərin bu humanist aktdan düzgün nəticə çıxaracaqlarına, azad cəmiyyətə qovuşaraq sürətlə inkişaf edən və dünyada günbəgün nüfuzu artan Azərbaycanın layiqli vətəndaşları olacaqlarına əminlik ifadə edilib.

# Ədliyyə işçiləri və hakimlər 28 May - Müstəqillik Günü münasibətilə Qarabağ Dirçəliş Fonduna ianə ediblər

**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin işçiləri və hakimlər tərəfindən 28 May - Müstəqillik Günü münasibətilə işğaldan azad olunan ərazilərin bərpası və yenidən qurulması tədbirlərinə dəstək göstərilməsi üçün Qarabağ Dirçəliş Fonduna 258 min manat məbləğində ianə edilib.**




Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi

Qarabağ Dirçəliş Fondu

Qeyd olunmalıdır ki, Ədliyyə Nazirliyi Qarabağ Dirçəliş Fondu yarandığı ilk gündən etibarən Fonda ianə edərək işğaldan azad olunan əraziləri bərpası və yenidən qurulması istiqamətində aparılan işlərə dəstək göstərib. Belə ki, Nazirlik tərəfindən Fonda daha öncə ümumilikdə 807 min 460 manat məbləğində ianə daxil olub.

Eyni zamanda, Ədliyyə Nazirliyi Qarabağda ekoloji tarazlığın və biomüxtəlifliyin bərpası məqsədi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Qarabağ Dirçəliş Fondu arasında imzalanan "Əməkdaşlıq Memorandumu" əsasında həyata keçirilən Zəngilanda "Zəfərdən Dirçəlişə" adlı meşə massivinin salınması layihəsinə 1000 ağac ianə edərək mühüm töhfə verib.

Qarabağ Dirçəliş Fondu bu nəcib addım üçün Ədliyyə Nazirliyinə təşəkkür edir və hər kəsi işğaldan azad olunan ərazilərə dəyən zərərin aradan qaldırılması, bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində görülən işlərə dəstək olmağa dəvət edir.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı şanlı qələbə Qarabağın uzun illər davam edən işğalına son qoydu. Azərbaycan dövlətinin tarixində əbədi qalacaq bu Qələbə ölkəmizdə həmrəyliyin və birliyin möhkəmlənməsində yeni reallıq yaratdı.

Qarabağ Dirçəliş Fondu yarandığı gündən etibarən minlərlə həmvətənimiz, yüzlərlə şirkət Qarabağın dirçəlişi kimi mühüm bir dəyər ətrafında birləşmək, bu istiqamətdə görülən işlərə dəstək olmaq məqsədilə birlik nümayiş etdirərək könüllülük prinsipi əsasında QDF-ə ianə edib.

Həmvətənlərimizin etdiyi ianələr işğaldan azad edilən ərazilərin bərpası və yenidən qurulması, eyni zamanda Ermənistanın təcavüzü nəticəsində evlərini tərk etmiş 1 milyondan çox azərbaycanlı məcburi köçkünün öz doğma yurdlarına qayıtması prosesini sürətləndirməyə imkan yaradacaq.

Siz də ianə etməklə bu mühüm missiyanın iştirakçısına çevrilə bilərsiniz.

Qarabağı BİRLİKDƏ daha GÖZƏL bərpa edəcəyik!

# Ümummilli lider Heydər Əliyevin doğum günü ədliyyə orqanlarında qeyd olunub



**Mayın 10-u müstəqil dövlətimizin qurucusu, ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümüdür. Ulu Öndərin xalqımız və dövlətimiz qarşısında müstəsna xidmətləri daim yüksək fəxr hissi ilə qeyd olunaraq əziz xatirəsi hədsiz məhəbbətlə və böyük ehtiramla anılır.**



Həmin gün Ədliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Fəxri xiyabana gələrək ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib, abidəsi önünə gül dəstələri qoyaraq sonsuz ehtiramlarını bildiriblər. Həmçinin akademik Zərifə xanım Əliyevanın məzarı önünə tər çiçəklər düzülüb.

Sonra əbədiyaşar liderin nazirlikdəki büstü önünə gül səbəti qoyulub, əziz və işıqlı xatirəsi yad edilib.

Heydər Əliyev muzeyində keçirilən tədbirdə ədliyyə naziri Fikrət Məmmədov çıxış edərək ümummilli lider Heydər Əliyevin anadan olmasının ildönümünün Böyük Qələbəmizin doğurduğu sevinc hissi ilə geniş qeyd edildiyini vurğulayıb, bütün varlığı ilə Vətəninə,











xalqına bağlı olan Ulu Öndərin şərəfli və mənalı həyat yolundan, zəngin dövlətçilik irsindən bəhs edib.

Bildirib ki, zaman keçdikcə dahi Heydər Əliyevin dövlət, millət qarşısında xidmətləri daha aydın görünür, həyatımızın elə bir sahəsi yoxdur ki, orada Heydər Əliyev dühası hiss olunmasın. Ulu Öndər ölkəmizin ən ağır günlərində hakimiyyətə qayıdaraq xalqımızı qısa müddətdə bəlalardan, təlatümlərdən qurtarmış, əmin-amanlığı, sabitliyi, qanunçuluğu bərqərar etmişdir. Demokratik hüquqi dövlət quruculuğu yolunu seçən Ümummilli Lider dövlətçiliyin möhkəm təməlini qoymuşdur.

Bu gün qlobal pandemiyaya, habelə müharibədən təzə çıxmağına baxmayaraq ölkəmiz Heydər Əliyev irsinin davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyevin müdrik siyasəti nəticəsində uğurla inkişaf edir, ən parlaq dövrünü yaşayır.

Ulu Öndərin Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağın, Şuşanın iqtisadi, sosial, mədəni cəhətdən inkişafına böyük diqqətini, bu bölgəyə səfərlərini xatırladan nazir Qarabağda erməni separatizminin qarşısının alınmasında mühüm xidmətlərini, torpaqlarımızın işğalı ilə heç zaman barışmayaraq ərazi bütövlüyümüzün təmin olunması istiqamətində yorulmaz fəaliyyətini qeyd edib. Ulu Öndər çıxışlarında hər zaman əminliklə deyirdi ki, torpaqlarımız işğaldan azad olunacaq və xalqımız öz dədə-baba yurdlarına qayıdacaq.

Nazir Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin 44 günlük Vətən müharibəsində doğma torpaqlarımızın azad olunması ilə ata vəsiyyətini şərəflə yerinə yetirdiyini vurğulayıb. Qeyd edib ki, dövlətimizin başçısı ərazilərimizin bərpasına müstəsna əhəmiyyət verərək Qarabağ və Şərqi Zəngəzurda öz gücümüz hesabına, heç kəsdən yardım almadan nəhəng quruculuq işləri aparılır, respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən tarixi, dini və mədəni abidələrimizin bərpası ilə bağlı mühüm layihələr reallaşdırılır.

Ulu Öndər tərəfindən Qarabağ torpağında - Şuşada təməlini qoyduğu Vaqif Poeziya Günləri, Xarıbülbül festivalı kimi ənənələrin yenidən bərpa olunduğunu söyləyən nazir F.Məmmədov ötən ay Şuşada keçirilmiş soydaşlarımızı bir araya gətirən Dünya Azərbaycanlılarının V Qurultayının - Zəfər Qurultayının mühüm əhəmiyyətinə diqqət çəkərək bildirib ki, Ulu Öndər Nax-




çıvana rəhbərliyi dövründə Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü müəyyən etmiş, təşəbbüskarlığı ilə 2001-ci ildə ilk qurultay keçirilmişdir.

Nazir ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə xalqımızın bundan sonra da möhtəşəm qələbələrin şahid olacağına əminliyini ifadə edib.

Çıxış edən ədliyyə işçiləri ümummilli lider Heydər Əliyevin fəaliyyətinin bütün dövrlərində respublikamızın, o cümlədən Qarabağın hərtərəfli inkişafının təmin olunmasında, milli maraqlarımızın qorunmasında, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılmasında xidmətlərindən bəhs edib, Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli istiqamətində mühüm addımların atıldığını bildirib, torpaqlarımızın işğaldan azad olunmasından yüksək qürur duyduqlarını vurğulayıblar.

Nazirliyin gənc əməkdaşı çıxış edərək Azərbaycan gəncliyinin hərtərəfli inkişafının, dövlət gənclər siyasətinin formalaşmasının ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğunu söyləyib, gənclərə daim qayğı ilə yanaşan Ulu Öndər tərəfindən bu sahədə mühüm qanunvericilik və institusional tədbirlər həyata keçirildiyini, Azərbaycan Gənclərinin I Forumunu və Ümummilli Liderin Sərəncamı ilə Gənclər Gününün təsis olunduğunu bildirib.

Bu gün ölkəmizdə sağlam düşüncəli, mənəvi cəhətdən saf və dövlətçilik ideyalarına sadiq, vətənpərvər ruhlu yeni nəsil formalaşdığını, könüllülük hərəkatının geniş vüsət aldığı qeyd edilib, ədliyyə işçilərinin Ulu Öndərin dövlətçiliyə sədaqət və vətənpərvərlik kimi yüksək amallarına daim sadiq qalaraq, Vətənimizin hərtərəfli tərəqqisi naminə ölkə Prezidentinin ətrafında sıx birləşərək var qüvvələri ilə çalışmaq əzmində olduqları vurğulanıb.

Tədbirdə dahi rəhbərin işıqlı xatirəsinin xalqımızın yaddaşında əbədi yaşayacağı qeyd olunub.

Ulu Öndərin doğum günü münasibətilə ədliyyə orqanlarında silsilə tədbirlər keçirilib, o cümlədən növbəti müsabiqədə uğur qazanmış namizədlər qulluğa qəbul olunub, ədliyyə işçiləri tərəfindən Milli Məclisin Regional məsələlər komitəsi və Bələdiyyələrin Milli Assosiasiyalarının birgə təşkilatçılığı ilə keçirilmiş "Tarix yazan imza" mövzusunda videoformatda konfransda çıxışlar edilib.

Gənc ədliyyə işçiləri və könüllüləri ilə "Ümummilli lider Heydər Əliyev və Azərbaycan Ədliyyəsi" mövzusunda Ədliyyə Akademiyasında yığıncaq keçirilib, nazirlikdə Ulu Öndərin adını daşıyan muzeylə tanışlıq olub.

Dahi şəxsiyyətin xalqımız qarşısında misilsiz xidmətləri ilə bağlı nazirliyin təlim və tədris müəssisələrində xüsusi mövzular tədris olunub, idman yarışı keçirilib, kinozalda filmlər, eləcə də foto və video slaydlar izlənilib, mətbuatda çıxışlar edilib, sosial şəbəkə səhifələrində materiallar paylaşılıb.

# Səudiyyə Ərəbistanı ilə hüquqi sahədə əməkdaşlıq genişlənir





**Mayın 12-də ədliyyə naziri Fikrət Məmmədov Azərbaycanda səfərdə olan Səudiyyə Ərəbistanı Krallığının Baş prokuroru Şeyx Səud bin Abdullah Əl Müacibin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Ölkələrimiz arasında tərəfdaşlıq münasibətlərinin inkişafını qeyd edən nazir bu əlaqələrin möhkəmlənməsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun mühüm rolunu vurğulayıb, diplomatik münasibətlərimizin qurulmasının 30 illiyinin qeyd olunduğunu bildirib, dövlətlərimizin eyni zamanda beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq etdiyini söyləyib.

Nazir 2019-cu ildə bu ölkəyə məhsuldar səfərini və Səudiyyə Ərəbistanının Kralı tərəfindən qəbulunu, keçirdiyi rəsmi görüşləri böyük məmnunluqla xatırladıb, Ədliyyə nazirlikləri arasında imzalanmış əməkdaşlıq haqqında Anlaşma Memorandumunun qarşılıqlı fəaliyyətin inkişafına xidmət etdiyini vurğulayıb. Qeyd edib ki, həmkarı Dr. Valid bin Mohammad Al-Samaaninin ölkəmizə səfəri çərçivəsində Əməkdaşlıq proqramı imzalanıb, bu zaman Azərbaycan təcrübəsinə maraq göstərilib.

Şeyx Səud bin Abdullah Əl Müacib iki ölkə rəhbərləri arasında olan münasibətlərin dövlətlərimiz arasında əlaqələrin inkişafına güclü təkan verdiyini vurğulayıb, səfər zamanı Prezident İlham Əliyev tərəfindən qəbul olunmasından şərəf duyduğunu bildirib. Qeyd edib ki, Azərbaycanın iqtisadi inkişafı, həmçinin azad edilmiş torpaqlarımızın bərpası ilə bağlı görülən işlər çox sevindiricidir. Azərbaycan Prezidenti öz ölkəsinin təhlükəsizliyi və firavanlığı naminə böyük işlər görür və qısa müddətdə uğurlara nail olunub.

Görüşdə hər iki ölkədə ədliyyə və məhkəmə-hüquq sahəsində aparılan islahatlar barədə faydalı fikir mübadiləsi aparılıb, nümayəndə heyətlərinin səfərlərinin təcrübə mübadiləsi baxımından əhəmiyyəti qeyd edilib. Qonaq iki ölkə arasında əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən ədliyyə və prokurorluq sahəsində inkişaf etdirilməsində maraqlı olduğunu söyləyib.

Eyni zamanda cinayətkarlıqla mübarizədə beynəlxalq əməkdaşlığa toxunularaq Azərbaycan və Səudiyyə Ərəbistanının Beynəlxalq Prokurorlar Assosiasiyasında fəal təmsilçiliyi qeyd olunub, habelə beynəlxalq antikorrupsiya mübarizəsində əməkdaşlıq imkanları müzakirə edilib.

FMəmmədov ölkəmizin həmtəsisçiliyi yaradılmış Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının (IAACA) fəaliyyəti barədə məlumat verib, vitse-prezidenti olduğu Assosiasiyanın işində Səudiyyə Ərəbistanını iştiraka təşviq edib. Baş prokuror ölkəsində korrupsi-

yaya qarşı mübarizənin prioritet olduğunu və bu sahədə beynəlxalq fəaliyyətə mühüm əhəmiyyət verdiyini bildirərək IAACA ilə əməkdaşlığa maraq göstərib.

Tədbirdə Səudiyyə Ərəbistanının qədim paytaxtı, YUNESKO-nun ümumdünya mədəni irs siyahısına daxil olan Diriiyyə şəhəri haqqında azərbaycanlı müəllifin "Diriiyyə - açıq səma altında muzey" adlı kitabı qonağa təqdim edilib. Bildirilib ki, kitab ərəb dilinə Əlahəzrət Kralın xeyir-duası ilə tərcümə olunub.

Səudiyyə Ərəbistanının Azərbaycandakı səfiri Həməd bin Abdullah bin Səud bin Xudeyr görüşdə iştirak edib.

Nümayəndə heyəti nazirlikdə ədliyyə tarixinə və Vətən müharibəsində Böyük Qələbəyə həsr olunmuş muzeylərlə tanış olublar.

# UNICEF ilə ədliyyə sahəsində səmərəli əməkdaşlıq edilir

**Mayın 5-də ədliyyə naziri Fikrət Məmmədov BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycan nümayəndəliyinin rəhbəri Aleks Haykens ilə görüşüb.**




UNICEF-lə səmərəli əməkdaşlığı qeyd edən nazir ölkəmizin davamlı inkişaf prosesindən, xüsusilə Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində Böyük Qələbə nəticəsində azad edilmiş ərazilərimizin bərpası ilə bağlı görülən tədbirlərdən, bu prosesə əngəl törədən torpaqlarımızın işğal dövründə büsbütün dağıdılaraq minalanmasından danışıb, ötən il qələbənin birinci ildönümü münasibətilə qəbul olunmuş və yetkinlik yaşına çatmayan məhkumları da əhatə edən ən geniş amnistiya aktının humanist əhəmiyyətini qeyd edib.

Eyni zamanda son illər cəza siyasətinin humanistləşdirilməsi, məhkumların saxlanma şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər barədə məlumat verilərək bu yaxınlarda yetkinlik yaşına çatmayan və qadın məhkumlar üçün yeni penitensiar müəssisələrin istifadəyə verildiyi bildirilib, cəmiyyətin həssas qrupu olan həmin məhkumların hüquqlarının təminatına xüsusi önəm verən dövlət başçısının müəssisələrə şəxsən baş çəkərək şəraitlə yerində tanış olduğu, habelə geniş ictimai təqdimatın keçirildiyi vurğulanıb.

UNISEF-in ölkəmizlə səmərəli əməkdaşlıq etdiyini söyləyən qonaq ədliyyə sahəsində birgə uğurlu layihələr həyata keçirildiyini vurğulayıb, penitensiar müəssisələrdə yaradılan müasir şəraitin təqdirəlayiq olduğunu qeyd edib. A.Haykens yuvenal ədliyyə sahəsində birgə fəaliyyət planının icrası çərçivəsində görülən tədbirlər, o cümlədən treninqlərin təşkili, qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanması barədə məlumat verib, penitensiar müəssisələrdə saxlanılan və probasiya nəzarətində olan azyaşlıların sosial adaptasiyası ilə bağlı təkliflər irəli sürüb.

Nazir ölkəmizdə məhkəmə sistemində aparılan islahatlar barədə qonağı məlumatlandıraraq məhkəmə infrastrukturunun müasirləşdirilməsi, "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi ilə bağlı tədbirlərin

ədalət mühakiməsinə əlçatanlığın asanlaşdırılmasına xidmət etdiyini vurğulayıb, UNICEF-lə səmərəli əməkdaşlıqda birgə həyata keçirilən qanunvericilik, institusional və praktiki tədbirləri qeyd edib. Yeniyetmələrin cinayət işləri üzrə ədalət mühakiməsi zamanı məhkəmələr tərəfindən humanistlik nümayiş etdirilərək onlar barəsində azadlıqdan məhrumetməyə alternativ cəzaların tətbiqinə üstünlük verildiyi bildirilib, probasiya xidmətinin fəaliyyətinə və həmin cəzaların icrasında elektron qolbaqların tətbiqinə toxunulub.

Qonaq ədliyyə və məhkəmə sahəsində ölkəmizin müsbət təcrübəsini maraqla qarşılayaraq təqdir edib, uğurlarımızın beynəlxalq miqyasda yayılmasının əhəmiyyətini vurğulayaraq bu işdə UNICEF-in dəstək göstərməyə hazır olduğunu bildirib.

A.Haykens həmçinin, ölkəmizin azad edilmiş ərazilərinin bərpası və minalardan təmizlənməsi prosesinə dəstək göstərilməsi ilə bağlı Ədliyyə Nazirliyinin müraciəti ilə əlaqədar UNICEF tərəfindən partlayıcı sursatlara dair geniş maarifləndirici proqramın həyata keçirildiyini vurğulayıb.

Görüşdə əməkdaşlığın bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə olunub, qarşılıqlı fəaliyyətin prioritetlərinə dair faydalı fikir mübadiləsi aparılıb.

Qonaq nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olub.

# Ədliyyə və məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə tədbirlər vətəndaş məmnunluğunu artırır

**Ölkə Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq ədliyyə naziri Fikrət Məmmədov mayın 19-da Şəmkir regional ədliyyə idarəsində Şəmkir, Gədəbəy rayonlarından və digər bölgələrdən olan vətəndaşların qəbulunu keçirib.**



Tədbirdən əvvəl ulu öndər Heydər Əliyevin abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoyulub, əziz xatirəsinə dərin ehtiram bildirilib.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilərək onların ədliyyə fəaliyyəti ilə bağlı müraciətlərinə baxılıb, xüsusilə müharibə iştirakçılarının və şəhid ailələrinin qayğılarına həssaslıqla yanaşılıb, qaldırılan məsələlərin bəzilərinin yerindəcə həlli ilə bağlı tədbirlər görülüb, digərləri isə araşdırılması üçün nəzarətə götürülməklə nazirliyin qəbulda iştirak edən məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Bölgə sakinləri onların müraciətlərinə daim diqqət və həssaslıqla yanaşılmasına, yerlərdə qəbulların keçirilməsi ilə bağlı yaradılan şəraitə görə dövlət başçısına minnətdarlıqlarını ifadə ediblər.

Səfər zamanı nazir yerli ədliyyə orqanlarına baş çəkib, ədliyyə işçiləri ilə görüşərək iş şəraiti ilə tanış olub, dövlət başçısının insanlara layiqli xidmət göstərilməsi, vətəndaş-məmur münasibətlərinin sağlam zəmində qurulması, korrupsiyaya şərait yaradan halların yolverilməzliyi ilə bağlı tələblərini daim rəhbər tut-

malarını diqqətə çatdırıb, xidməti vəzifələrini layiqincə yerinə yetirmələri, etik davranış qaydalarına dönmədən əməl etmələri barədə tapşırıqlar verib.

Nazir, Məhkəmə-Hüquq Şurasının sədri F.Məmmədov tərəfindən, həmçinin Şəmkir Rayon Məhkəməsində hakimlərlə müşavirə keçirilərək ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə görülən tədbirlər, yol verilən nöqsanlar və qarşıda duran vəzifələr müzakirə olunub.

Dövlət başçısının ötən ay imzaladığı "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın mühüm əhəmiyyəti qeyd olunaraq məhkəmə fəaliyyətində şəffaflığın artırılması, antikorrupsiya tədbirlərinin gücləndirilməsi, vətəndaşların məhkəmələrə etimadının artırılması ilə bağlı tədbirlər diqqətə çatdırılıb.

Bununla yanaşı, Gəncə Apellyasiya Məhkəməsində bölgənin bir sıra məhkəmələrində aparılmış monitorinqlərin nəticələri müzakirə olunaraq, aşkar edilmiş qüsurların aradan qaldırılması, işin təkmilləşdirilməsi, məhkəmə qərarlarının ədalətliliyinin təmin olunması və vətəndaş məmnunluğunun yüksəldilməsi ilə bağlı tövsiyələr verilib, məhkəmələrə əməli və metodiki köməklik göstərilib.

# Ədliyyə Akademiyasında il ərzində 7.000 şəxs ixtisasını artırıb



**Azərbaycan Respublikası Prezidentinin 19.05.2022-ci il tarixli Sərəncamı ilə Ədliyyə Akademiyasının rektoru vəzifəsinə təyin edilmiş Şahin Məhərrəm oğlu Əliyev Akademiyanın kollektivinə təqdim olunub.**

Bu münasibətlə Ədliyyə Nazirliyinin məsul işçilərinin, tədris-elm müəssisəsinin müəllim heyətinin iştirakı ilə keçirilmiş tədbirdə rektoru təqdim edən ədliyyə naziri Fikrət Məmmədov Ş.Əliyevin keçdiyi həyat yolu və iş təcrübəsi barədə məlumat verib.

Nazir ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ədliyyə orqanlarının inkişafı ilə bağlı aparılan islahatlar çərçivəsində kadrların hazırlanması və yüksək keyfiyyətli tədrisin təşkili məsələlərinə xüsusi önəm verildiyini, Akademiyanın fəaliyyətinin səmərəliliyinin artırılması, potensialının gücləndirilməsi üzrə ardıcıl tədbirlərin görüldüyünü vurğulayıb, kadrların hazırlığının müasir çağırışlara uyğun təşkili, tədris prosesində ən müasir metodikaların və üsulların tətbiq edildiyini qeyd edib.

Qarşıda duran vəzifələrdən danışan nazir dövlət başçısının yenicə imzaladığı Fərmanla yaradılmış Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin hüququn müxtəlif sahələri üzrə islahatların həyata keçirilməsində və normayaratma fəaliyyətinin keyfiyyətinin yüksəldilməsində rolunu qeyd

edərək Mərkəzlə Ədliyyə Nazirliyinin və Akademiyanın qarşılıqlı fəaliyyətinin perspektivlərini diqqətə çatdırıb.

Tədbirdə həmçinin bildirilib ki, geniş dinləyici auditoriyasına malik olan Akademiya çoxminli ədliyyə işçilərinin, hakimlərin və hakimliyə namizədlərin, prokurorların, vəkillərin, mediatorların və digər hüquqşünasların, bələdiyyə üzvü və qulluqçularının tədrisini və peşə hazırlığını həyata keçirir. Ötən il 7.000-ə yaxın şəxs icbari təlim və ixtisasartırma kurslarına cəlb olunub.

Eyni zamanda Akademiyada əhalinin aztəminatlı təbəqəsinə pulsuz hüquqi yardım göstərən Hüquq Klinikasının fəaliyyətinə toxunulub, tədris ocağının beynəlxalq əlaqələrinin genişləndiyi, Türkiyə, Ukrayna, Moldova və digər dövlətlərin təhsil qurumları, beynəlxalq təşkilatlarla, o cümlədən Avropa Şurası, Avropa İttifaqı ilə səmərəli əməkdaşlıq etdiyi, hüquqşünasların tədrisi sahəsində birgə tədbirlərin keçirildiyi və beynəlxalq təlimçilərin cəlb olunduğu vurğulanıb.

Ş.Əliyev çıxış edərək, göstərilən yüksək etimada görə dövlət başçısına minnətdarlığını ifadə edib, Akademiyanın kadrların peşə səviyyəsinin yüksəldilməsi ilə bağlı çoxşaxəli fəaliyyət göstərdiyini və geniş tədris tədbirləri həyata keçirdiyini qeyd edərək qarşıda duran vəzifələrin uğurla icrası üçün səylərini əsirgəməyəcəyini söyləyib.

# Gənclər ədliyyə orqanlarına qullugа qəbul olunub

**Ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu dövlət gənclər siyasəti ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilərək ölkəmizdə müasir düşüncəli, vətənpərvər yeni nəsil formalaşıb.**




Dövlət başçısının və respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın qayğısı ilə daim əhatə olunan gənclərimiz cəmiyyətdə fəallığı ilə seçilir, könüllülük hərəkatının aparıcı qüvvəsi olmaqla insanlara layiqli xidmət göstərilməsində öz bilik və bacarıqlarını əsirgəmir, dövlət idarəçiliyində geniş təmsil olunurlar.



Ölkə başçısının tapşırıqlarına uyğun olaraq ədliyyə orqanlarında da gənclərin işlə təminatına xüsusi önəm verilir, kadr korpusunun hazırlıqlı, müasir dünyagörüşlü mütəxəssislərlə komplektləşdirilməsi məqsədilə namizədlərin seçimi prosesi fasiləsiz aparılaraq davamlı müsabiqələr keçirilir. Hazırda çoxminli əməkdaşların təxmi-

nən yarısını gənclər, qulluğa qəbul edilən yeni nəsil ədliyyə işçiləri isə nazirliyin əksər xidmətlərinin kadr korpusunun 70 faizə qədərini təşkil edir. Təkcə son bir ildə 300-dək mütəxəssislər qulluğa qəbul olunublar. Onlar nazirliyin müxtəlif sahələrində uğurla fəaliyyət göstərərək püxtələşir, vəzifələrində yüksəlirlər. Çoxsaylı gənc ədliyyə işçilərinin irəli çəkilərək bu gün respublikamızda ali dövlət orqanlarında məsul və rəhbər vəzifələrdə çalışmaları məmnunluq doğurur.

Bu işlərin davamı olaraq nazirliyin bölgələrdəki qurumlarında vakant ştatlar üzrə keçirilən növbəti müsabiqəyə yekun vurulub və uğur qazanmış bir qrup gənclər Ulu Öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü ərəfəsində ədliyyə orqanlarına qulluğa qəbul edilərək barələrində müvafiq təyinatlar aparılıb. Onların sırasında Vətən müharibəsi iştirakçılarının və ailə üzvlərinin olması xüsusilə qeyd olunmalıdır.

Gənclər Fəxri xiyabanda Ümummilli Liderin məzarını ziyarət edərək, abidəsi önünə gül dəstələri qoyub, əziz xatirəsini dərin ehtiramla yad ediblər. Sonra Şəhidlər xiyabanında xalqımızın azadlığı və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəman övladlarımızın xatirəsi anılıb, məzarları önünə tər çiçəklər düzülüb.



Qulluğa yeni qəbul olunan əməkdaşlarla mayın 12-də nazirliyin rəhbərliyinin görüşü keçirilib.

Gəncləri bu əlamətdar gündə qulluğa qəbul olunmaları münasibətilə təbrik edən ədliyyə nazirinin müavini Toğrul Musayev Ümummilli Liderin xalqımız və dövlətimiz qarşısında müstəsna xidmətlərindən bəhs edib, hüquq-mühafizə orqanlarının fəaliyyətinə hər zaman xüsusi diqqət yetirdiyini bildirərək dahi öndərin bu qurumların işçiləri qarşısında müəyyən etdiyi dövlətçiliyə sədaqətlə xidmət etmək, sağlam mənəviyyata, yüksək mənəvi keyfiyyətlərə malik olmaq kimi tələblərinin daim rəhbər tutulmasının vacibliyini diqqətə çatdırıb.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində şanlı qələbəmizə, azad edilmiş torpaqlarımızda aparılan nəhəng bərpa-quruculuq işlərinə toxunularaq, Qarabağın tacı, mədəniyyət paytaxtımız Şuşa şəhərində dövlət başçısının və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə mühüm tədbirlərin, o cümlədən bu ərəfədə keçirilən V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalının əhəmiyyəti vurğulanıb.

Böyük Qələbəmizin təmin olunmasında Müzəffər Ali Baş Komandanın ətrafında sıx birləşən Azərbaycan gənclərinin, o cümlədən əsl vətəndaşlıq nümunəsi göstərərək müharibəyə yollanan gənc ədliyyə işçiləri və könüllülərinin rəşadət və fədakarlığından, dövlət təltiflərinə layiq görülmələrindən, Vətən müharibəsi iştirakçılarına göstərilən yüksək qayğıdan bəhs olunub.

Nazirlik tərəfindən müharibə iştirakçılarının, şəhidlərimizin ailə üzvlərinin müraciətlərinə xüsusi həssaslıqla yanaşılaraq 100-ə yaxın belə şəxslərin ədliyyə orqanlarına qulluğa qəbul olunduğu bildirilib, şəhid ədliyyə işçisi, nazirliyin İcra baş idarəsinin əməkdaşı Ruhin Xəlilovun layiqli xidmətindən, vətənpərvərliyindən və qəhrəmanlığından söz açılıb, xatirəsinin daim uca tutulduğu, ailəsinin qayğılarının diqqətdə saxlanıldığı qeyd edilib.

Görüşdə ölkə rəhbərinin dövlət qulluqçularının qarşısında qoyduğu mühüm tələblər vurğulanaraq bildirilib ki, hər bir əməkdaş qanunun aliliyini

və dövlətçiliyə sədaqət prinsiplərini hər şeydən üstün tutmalı, məsuliyyətli, təvazökar, Vətənə bağlı olmalı, insanlara layiqli xidmət göstərməli, sosial aktivlik nümayiş etdirməlidir.

Tədbirdə ədliyyə naziri Fikrət Məmmədovun gənclərə təbriki və xidməti vəzifələrini layiqincə yerinə yetirmələri, etik davranış qaydalarına dönmədən əməl etmələri ilə bağlı göstərişləri çatdırılıb.

Çıxış edən gənclər, müharibə iştirakçıları ulu öndər Heydər Əliyevin doğum gündə qulluğa qəbul olunmalarından yüksək qürur hissi keçirdiklərini bildirib, ədliyyə qulluqçusu kimi dövlət başçısının ətrafında sıx birləşərək Vətənimizin hərtərəfli tərəqqisi naminə sədaqətlə xidmət edəcəklərini vurğulayıb, onlara göstərilən yüksək etimadı fəaliyyətləri ilə doğruldacaqlarına, ədliyyə işçisi adını şərəflə daşıyacaqlarına söz veriblər.

Sonra yeni təyinat almış əməkdaşlar Azərbaycan Respublikasının Dövlət Bayrağı önündə təntənəli qaydada and içiblər, onlara xidməti vəsiqələr təqdim edilib, xatirə şəkli çəkdirilib.

# Notarius vəzifələri üzrə müsabiqədə iştirak edən namizədlərlə test imtahanı keçirilib





**Bəzi bölgələrdə notariat fəaliyyəti ilə məşğul olmaq istəyən namizədlərlə elan olunmuş müsabiqə üzrə may ayının 24-də növbəti test imtahanı keçirilib.**

Dövlət İmtahan Mərkəzi ilə birlikdə namizədlərlə fərdi qaydada, kompüter vasitəsilə keçirilmiş test imtahanını vətəndaş cəmiyyətinin nümayəndələri izləyiblər.

İmtahanın keçirilməsi qaydalarına uyğun olaraq, test imtahanında namizədin hüquqi biliklərini, məntiqi nəticələr çıxarmaq qabiliyyətini və ümumi dünyagörüşünü müəyyən etmək üçün verilən test tapşırığı 100 sualdan ibarət olub.

67 nəfərin iştirak etdiyi imtahanın nəticələrinə dair namizədlərə yerindəcə arayış təqdim olunub və yekuna görə mümkün 90 ba ldan 55 və ya daha artıq bal toplayan 41 nəfər müvəffəqiyyət qazanıb. Uğur qazanmış namizədlərin siyahısı nazirliyin (www.justice.gov.az) və DİM-in (www.dim.gov.az) internet səhifələrində yerləşdirilib.

Bildirilir ki, qanunvericiliyin tələblərinə əsasən test imtahanında zəruri keçid balını toplamış hüquqşünaslar ikinci mərhələyə - müsahibəyə buraxılır və onlarla fərdi qaydada söhbət aparılacaqdır. Müsahibənin keçirilmə vaxtı və yeri barədə məlumat veriləcəkdir.




Əlavə informasiyanı nazirliyin internet səhifəsindən, habelə (012) 404-42-19, (012) 404-42-28 nömrəli əlaqə telefonları vasitəsilə əldə etmək mümkündür.

# Dünya Bankı ədliyyə sahəsində həyata keçirilən layihəni örnək kimi qiymətləndirir

**Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan mütərəqqi məhkəmə-hüquq islahatlarına nüfuzlu beynəlxalq qurumlar, o cümlədən Dünya Bankı tərəfindən böyük maraq göstərilərək bu sahədə 15 ildən çoxdur səmərəli əməkdaşlıq edilir, mütərəqqi ədliyyə xidmətləri və məhkəmə infrastrukturunun müasirləşdirilməsi üzrə birgə layihələr uğurla həyata keçirilir.**

Həmin layihələr çərçivəsində, habelə dövlət büdcəsi hesabına paytaxtda və bölgələrdə 40-a yaxın məhkəmə üçün ən qabaqcıl İKT ilə təchiz edilmiş yeni bina, başqa sözlə, "hi-tech" məhkəmələr inşa olunub. Onların bir çoxunun açılışları dövlətimizin başçısı tərəfindən şəxsən həyata keçirilib. Dünya Bankı ədliyyə sahəsindəki layihələri ən uğurlularından hesab edərək innovasiyalara görə nominasiyaların qalibi elan edib.

Həmin layihələrin icrasına dəstək missiyasının üzvləri ölkəmizdə səfərdə olaraq ötən dövrdə layihə çərçivəsində inşa olunmuş məhkəmə bina və komplekslərinin, elektron sistemlərin monitorinqini aparıb, həmçinin ötən il istifadəyə verilmiş Sumqayıt və Masallı Məhkəmə kompleksləri, Suraxanı Rayon Məhkəməsinin müasir binası, nazirliyin yeni elektron data mərkəzləri ilə tanış olublar.



Səfər zamanı Dünya Bankının Azərbaycan üzrə ölkə meneceri xanım Sara Maykl və layihənin icrasına dəstək missiyasının nümayəndə heyəti mayın 27-də ədliyyə nazirinin müavini Azər Cəfərov ilə görüşüblər.

Dünya Bankı ilə uzun müddətdir ədliyyə sahəsində səmərəli əməkdaşlıq edildiyini bildirən nazir müavini birgə həyata keçirilən layihələrin uğurlu nəticələrini vurğulayıb, dövlət başçısı cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq layihələr çərçivəsində ədliyyə və məhkəmə infrastrukturunun müasirləşdirilməsi üzrə görülən tədbirləri, müasir texnologiyaların geniş vüsət almasını, o cümlədən "e-məhkəmə", "e-notariat və "e-icra" informasiya sistemlərinin tətbiqini qeyd edib.

Xanım Sara Maykl ədliyyə sahəsində nümunəvi əməkdaşlığı, həyata keçirilən layihələrin Bankın ən uğurlu və öncül layihələrindən olduğunu vurğulayıb, bu sahədə Azərbaycanın nailiyyətlərinin digər dövlətlər üçün örnək olduğunu və müsbət təcrübəmizin dünyada geniş yayılmasının vacibliyini qeyd edib. Bildirib ki, Dünya Bankı ölkəmizlə uzunmüddətli etibarlı tərəfdaşlıq münasibətlərini davam etdirməkdə maraqlıdır.

Dəstək missiyasının üzvləri aparılan monitorinqlər zamanı binaların səliqə-sahmanla istismar olunmasının, yaradılmış yüksək şəraitin bütün istifadəçilərdə, o cümlədən məhkəmələrə gələn vətəndaşlarda məmnunluq doğurmasının şahidi olduqlarını söyləyib, bir neçə məhkəmələrin yerləşdiyi məhkəmə komplekslərinin, "Elektron məhkəmə"nin səmərəli tətbiqinin ədalət mühakiməsinə əlçatanlığı asanlaşdırdığını vurğulayıblar.

Ədliyyə Nazirliyi tərəfindən layihənin icrasına peşəkar yanaşıldığını bildirən qonaqlar mediasiya, özəl icra institutlarının təşviqi, qurumların ins-

titusional potensialının gücləndirilməsi, aztəminatlı ailələrə ödənişsiz hüquqi yardımın göstərilməsi və s. üzrə tədbirləri nəzərdə tutan layihənin, həmçinin Konstitusiya Məhkəməsi, Ali Məhkəmə, Ombudsman təsisatı, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Vəkillər Kollegiyasını da müxtəlif istiqamətlər üzrə əhatə etməsinin əhəmiyyətini qeyd ediblər.

Söhbət zamanı Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış Böyük Qələbə nəticəsində azad edilmiş torpaqlarımızın bərpasının ölkəmizin ən mühüm prioritetlərindən olduğu vurğulanıb. Dünya Bankının təmsilçiləri həmin ərazilərdə ədliyyə orqanlarının və məhkəmələrin bərpası işində yardım göstərməyə hazır olduqlarını söyləyiblər.

Görüşdə layihə çərçivəsində birgə tədbirlərin icrası prosesinə, həmçinin e-məhkəmə sisteminin imkanlarının müasir çağırışlara uyğun artırılması, "süni intellekt"dən istifadə, intellektual idarəetmə və digər rəqəmsal yeniliklərin tətbiqinə dair faydalı fikir mübadiləsi aparılıb.

# Ölkəmiz Türkiyə Ali İnzibati Məhkəməsinin yaradılmasının 154-cü ildönümü ilə bağlı tədbirdə təmsil olunub

**Mayın 10-12-də Türkiyə Respublikasının Ankara şəhərində qardaş ölkənin Ali İnzibati Məhkəməsinin (Danıştay) yaradılmasının 154-cü ildönümü ilə bağlı tədbir keçirilib.**

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın qatıldığı tədbirdə Türkiyənin ədliyyə naziri Bəkir Bozdağ, Ali Məhkəmənin sədri Mehmet Akarca, bəzi türkdilli dövlətlərdən olan hakimlər və dövlət rəsmiləri, eləcə də hüquqşünas alimlər iştirak ediblər. Ölkəmizi Ədliyyə Nazirliyinin Təşkilat-nəzarət baş idarəsinin rəisi Elçin Qasımov və Ali Məhkəmənin İnzibati Kollegiyasının sədri Xəqani Məmmədov təmsil ediblər.

Tədbirdə Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan açılış nitqi ilə çıxış edib. Qardaş ölkənin hakimləri və nüfuzlu hüquqşünas alimləri tərəfindən məhkəmə-hüquq sistemində inzibati mühakimənin əhəmiyyəti, yeri, inzibati məhkəmələrin strukturu, inzibati məhkəmə







qərarlarının icrası və s. mövzularda geniş məlumat verilib.

Nümayəndə heyətimiz tərəfindən tədbirdə ölkəmizdə inzibati mühakimənin yeri, hüquq sisteminin təqdimatı mövzularında çıxışlar edilib, dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsi üzrə görülən işlər və Azərbaycanın məhkəmə-hüquq sistemi barədə ətraflı məlumat verilib, ölkəmizin məhkəmə sistemi və inzibati məhkəmələrin fəaliyyəti ilə bağlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılaraq tədbir iştirakçılarının sualları cavablandırılıb.

Səfər çərçivəsində həmçinin, Türkiyənin ədliyyə naziri Bəkir Bozdağ və Ali İnzibati Məhkəməsinin sədri Zəki Yığıtla işçi görüşlər keçirilərək qardaş ölkələrimiz arasında ədliyyə və məhkəmə sahəsində səmərəli əməkdaşlıqdan məmnunluq ifadə olunub, fikir mübadiləsi aparılıb.

# "Dayanıqlı inkişaf üçün ədalətli, sülhsevər və açıq cəmiyyətləri təşviq etmək" mövzusunda ictimai müzakirələr aparılıb

**Mayın 23-də Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının, Ədliyyə və İqtisadiyyat nazirliklərinin birgə təşkilatçılığı ilə "Dayanıqlı inkişaf üçün ədalətli, sülhsevər və açıq cəmiyyətləri təşviq etmək" mövzusunda ictimai müzakirələr aparılıb.**

Tədbirdə Prezident Administrasiyasının, Ədliyyə və İqtisadiyyat nazirliklərinin, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin, Mediasiya Şurasının, BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisinin ofisinin təmsilçiləri, hakimlər, sahibkarlar, vətəndaş cəmiyyəti institutlarının və media qurumlarının nümayəndələri iştirak ediblər.

Tədbirin açılışında Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin sektor müdiri Vüsal Quliyev çıxış edərək ictimai müzakirənin əhəmiyyətini qeyd edib, Dayanıqlı İnkişaf Məqsədlərinin icrası üzrə görülən tədbirlərə toxunub. Bildirib ki, DİM-lərin icrasında vətəndaş cəmiyyəti institutları daha fəal olmalıdır. Azərbaycanda dörd minə yaxın QHT qeydiyyat keçib və onların əksəriyyəti ölkəmizin ictimai-siyasi həyatında və digər sahələrdə kifayət qədər aktiv fəaliyyət göstərirlər.

İqtisadiyyat Nazirliyinin Dayanıqlı inkişaf və sosial siyasət şöbəsinin müdiri, Milli Əlaqələndirmə Şurasının katibi Hüseyn Hüseynov çıxışında




Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən dinamik inkişaf siyasəti nəticəsində ölkəmizdə yoxsulluğun səviyyəsinin dəfələrlə aşağı düşdüyünü, ifrat yoxsulluğun tamamilə aradan qalxdığını bildirib: "Prezidentin müvafiq Sərəncamı ilə 2016-cı ildə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılıb. Ötən il dövlətimizin başçısının digər Sərəncamı ilə Milli İnkişaf Prioritetləri də təsdiq



olunub ki, həmin sənədin əsas istiqamətlərindən biri də işğaldan azad edilmiş ərazilərə qayıdışın mərhələli formada təmin olunmasıdır".

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva çıxışında bu istiqamətdə görülən işlər barədə məlumat verib, bu il iyunun 13-də BMT ilə memorandumun imzalanacağını bildirib. Agentliyin artıq bir ilə yaxındır fəaliyyət göstərdiyini vurğulayan A.Əliyeva Agentliyin ictimai əhəmiyyətli təşəbbüsləri daim dəstəklədiyini, ictimai iştirakçılığı təşviq etdiyini bildirib, DİM təşəbbüslərinə çox böyük önəm verdiyini deyib: "Biz artıq altı aydır görüşlər keçiririk. Bu yaxınlarda Qubada regional konfrans keçirdik və orada QHT-lərlə bir sıra görüşlərimiz oldu, müzakirələr aparıldı".

Sonra tədbir panel iclaslarında aparılan müzakirələrlə davam edib. Ədliyyə Nazirliyinin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Aynur Sabitovanın moderatorluğu ilə keçən "Dayanıqlı inkişaf üçün sülhün və inklüziv cəmiyyətlərin təşviqi, hamı üçün ədalət mühakiməsinə çıxış imkanının təmin edilməsi" adlı birinci iclasda nazirliyin Təşkilat-nəzarət baş idarəsinin rəis müavini Sübhi Kazımov, İnformasiya-kommunikasiya texnologiyalar idarəsinin rəisi Ağakərim Səmədzadə, Qeydiyyat və notariat baş idarəsinin qrup rəhbəri Leyla Bərxudarzadə, BMT-nin Azərbaycandakı nümayəndəliyinin müşaviri Şəms Mustafayeva çıxış ediblər. Çıxışlarda DİM-lərin icrası üçün dövlət-vətəndaş cəmiyyəti tərəfdaşlığının, bütün səviyyələrdə səmərəli, məsuliyyətli və şəffaf təşkilatların yaradılmasının zəruriliyindən söhbət açılıb.

"Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində vətəndaş cəmiyyətinin və QHT-lərin rolu" adlı ikinci panel iclasına Mediasiya Şurasının sədri Nadir Adilov moderatorluq edib. Panel iclasında çıxış edən "Konstitusiya" Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev, Ədliyyə Nazirliyi yanında İctimai Şuranın sədri, Beynəlxalq İnsan Hüquqları Cəmiyyətinin Azərbaycan milli bölməsinin rəhbəri Səadət Bənənyarlı, "İnformasiya Təşəbbüslərinə Dəstək" İctimai Birliyinin sədri Cəsarət Hüseynzadə, "Ümidli Gələcək" Sosial Təşəbbüslər İctimai Birliyinin sədri Kəmalə Aşumova vətəndaş cəmiyyətinin savadlandırılması yolu ilə DİM barədə məlumatlılığın artırılması, qanunun aliliyinin təşviqi və hamı üçün ədalət mühakiməsinə bərabər çıxış imkanının təmin edilməsi mövzusunda həyata keçirilən tədbirlərdən danışıblar.

Aparılan müzakirələrdə Dayanıqlı İnkişaf üzrə 16-cı məqsədin icrasına xidmət edən ədalət mühakiməsinin əlçatanlığının təmin olunması, məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı aparılan qanunvericilik, institusional və praktiki tədbirlər, vətəndaşların, o cümlədən sahibkarlıq subyektlərinin müraciət imkanlarının asanlaşdırılması məqsədilə yeni məhkəmələrin yaradılması, "Elektron məhkəmə" informasiya sisteminin tətbiqinin önəmi barədə söhbət açılıb. Eyni zamanda, ədliyyə sahəsində əhaliyə şəffaf, operativ və resurslara qənaət etməklə hüquqi xidmətlərin göstərilməsi, elektron və mobil xidmətlərdən istifadə, ictimai iştirakçılığın geniş təşviqi barədə faydalı fikir mübadiləsi aparılıb.

Sonda maraq doğuran suallar cavablandırılıb.

Qeyd edək ki, BMT-nin 2030-cu ilədək Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulan Azərbaycanda hərtərəfli tərəqqiyə yönələn məqsəd və hədəflərə nail olunması üçün ardıcıl tədbirlər görülür. Bu sahədə qarşıya qoyulan vəzifələrin icrasının əlaqələndirilməsi məqsədilə Prezident İlham Əliyevin 2016-cı il 6 oktyabr tarixli Fərmanı ilə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılıb. Ötən dövrdə bir çox hədəflər, o cümlədən sülhün və inklüziv cəmiyyətlərin təşviqi, hamı üçün ədalət mühakiməsinə çıxışın təmin edilməsi üzrə mühüm nailiyyətlər əldə olunub. Azərbaycan Dayanıqlı İnkişaf Məqsədlərinin nailiyyət indeksi üzrə regionda ən yaxşı nəticə göstərərək 2021-ci il üzrə Dayanıqlı İnkişaf Hesabatında 165 ölkə arasında 55-ci yeri tutub.

# "Ədliyyə orqanlarında və məhkəmələrdə kommunikasiya siyasəti" mövzusunda təlim keçirilib

**Mayın 19-da Ədliyyə Nazirliyinin, Medianın İnkişafı Agentliyinin (MEDİA) və Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının birgə təşkilatçılığı ilə jurnalistlər üçün "Ədliyyə orqanlarında və məhkəmələrdə kommunikasiya siyasəti" mövzusunda təlim keçirilib.**

40-a yaxın media nümayəndəsinin qatıldığı təlimdə Ədliyyə Nazirliyinin, Medianın İnkişafı Agentliyinin, Məhkəmə-Hüquq Şurasının, Mediasiya Şurasının rəhbər və məsul şəxsləri, Bakı şəhər Yasamal Rayon məhkəməsinin sədri və spiker-hakimlər iştirak ediblər.

Təlimin açılışında çıxış edən Ədliyyə Nazirliyinin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Aynur Sabitova ədliyyə orqanlarının və məhkəmələrin media ilə dialoqun, sosial media fəaliyyətinin gücləndirilməsi ilə bağlı ardıcıl işlərin görüldüyünü qeyd edib, Ədliyyə Nazirliyinin 2021-2023-cü illər üzrə Kommunikasiya Strategiyasına toxunaraq Medianın İnkişafı Agentliyi, Azərbaycan Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının birgə təşkilatçılığı ilə keçirilən təlimin media nümayəndələri, həmçinin ədliyyə sahəsində mətbuata məsul əməkdaşlar və spiker-hakimlər üçün








kommunikasiyanın daha effektiv həyata keçirilməsi baxımından faydasını vurğulayıb.

Medianın İnkişafı Agentliyinin Media subyektləri və jurnalistlərlə iş şöbəsinin müdiri Natiq Məmmədli təlimin başlıca hədəfinin ədliyyə orqanları ilə medianın münasibətlərinin daha da şəffaflaşdırılması işinə xidmət olduğunu bildirib. Bu münasibətlərin ölkəmizin beynəlxalq imici üçün müstəsna əhəmiyyətinin olduğunu deyən Natiq Məmmədli jurnalistlərin kommunikasiyaya qoşulmasının cəmiyyətin daha çox məlumatlandırılması baxımından önəmli olduğunu diqqətə çatdırıb.

Sonra əhalinin hüquqi maarifləndirilməsində Ədliyyə Nazirliyinin rolu, məhkəmə hakimiyyətinin müstəqil özünüidarə fəaliyyəti, məhkəmələrin müstəqilliyi, onların fəaliyyətinə müdaxilənin yolverilməzliyi və şəffaflıq, məhkəməyə qədər mübahisələrin həllində mediasiyanın rolu, media sahəsində qanunvericiliyin prioritetləri, ədliyyə orqanlarında və məhkəmələrdə media ilə işin təşkili, bu sahədə kommunikasiya strategiyası və sosial media siyasəti ilə bağlı mövzularda məruzələr dinlənilib, jurnalistləri maraqlandıran suallar cavablandırılıb.

Sonda media nümayəndələrinə təlimdə iştirak etdiklərinə görə sertifikatlar təqdim olunub.

# Ədliyyə işçiləri və hakimlər Şuşa şəhərində olublar

**Ədliyyə Nazirliyinin bir qrup əməkdaşları və məhkəmə hakimiyyətinin təmsilçiləri mədəniyyət paytaxtımız Şuşa şəhərində səfərdə olublar.**

Ədliyyə işçiləri və hakimlər Şuşada Cıdır düzündə təşkil olunmuş V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalında iştirak edib, Şuşanın tarixi, mədəni və dini abidələri ilə tanış olublar.

30 il həsrətində olduğumuz doğma torpaqlara səfərdən xoş təəssüratla və unudulmaz hisslərlə qayıdan ədliyyə işçiləri və hakimlər xalqımıza Böyük Qələbə sevinci yaşadan Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə sonsuz minnətdardırlar.

Əmindirlər ki, əzəli tarixi torpağımız olan Qarabağ və Şərqi Zəngəzur dövlət başçısının rəhbərliyi və respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəal iştirakı ilə genişmiqyaslı bərpa-quruculuq işləri aparılmaqla yenidən dirçələcək və cənnətə çevriləcəkdir.

Qarabağ Azərbaycandır!











# Hakimlərin Seçki Komitəsinin məlumatları

**Test üsulu ilə, habelə yazılı və şifahi imtahanlardan keçərək, yarım illik tədris kursunu, məhkəmələrdə stajkeçməni başa vurmuş və tədrisin yekunu üzrə yazılı imtahanı vermiş 40 nəfər hakimliyə namizədin peşə hazırlığının yoxlanılması məqsədilə şifahi imtahan keçirilib.**

Hakimlərin Seçki Komitəsinin iclasında şifahi imtahanın nəticələri müzakirə edilib, 39 nəfər hakimliyə namizədin növbəti mərhələdə - yekun müsahibədə iştirakı ilə bağlı qərar qəbul olunub.

***

**Ölkə Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 03.04.2019-cu il tarixli Fərmanı ilə məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə zəruri tapşırıqlar verilib.**

Hakimlərin yüksək iş yükünün azaldılması, işlərə daha tez və keyfiyyətlə baxılması məqsədilə hakim ştatlarının sayı 200 vahid artırılıb.

Bununla əlaqədar hakimliyə namizədlərin seçimi prosesi fasiləsiz aparılmaqla sənədlərin qəbulu davamlı xarakter alıb, 900-dən çox namizədlə müsabiqələr keçirilib. 44 nəfər dövlət başçısının sərəncamı ilə ötən il müxtəlif hakim vəzifələrinə təyin edilib, hazırda 140 nəfər müsabiqənin müxtəlif, o cümlədən yekun müsahibə mərhələsindədir.



Eyni zamanda 200-dən çox hüquqşünas test imtahanında iştirak etmək üçün sənədlərini təqdim ediblər.

Hakimlərin Seçki Komitəsi bildirir ki, həmin namizədlərlə test imtahanı cari ilin iyun ayının 8-də Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən keçiriləcəkdir (ünvan: Bakı şəhəri, Nəsimi rayonu, Abdulvahab Salamzadə küçəsi 28). Növbəti müsabiqə üçün sənədlərin qəbulu isə fasiləsiz davam edir.

Həmçinin, namizədlərə xatırladılır ki, test imtahanı DİM tərəfindən qanunvericiliyə uyğun olaraq ödənişli keçirilir.

Namizədlərin rahatlığı üçün imtahana görə ödənişin aparılması və "İmtahana buraxılış vərəqəsi"nin əldə olunması DİM tərəfindən may ayının 25-dən etibarən dim.gov.az saytı vasitəsilə həyata keçiriləcəkdir. Müsabiqə ilə bağlı "Yaddaş Kitabçası" isə Məhkəmə-Hüquq Şurasının jlc.gov.az saytından əldə edilə bilər.

Əlaqə telefonları: (012) 510-22-97; (012) 510-21-62

# Hakimlərə əqli mülkiyyət sahəsində təlim keçirilib



**Mayın 17-18-də Əqli Mülkiyyət Agentliyi, Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası və ABŞ Ticarət Departamentinin Kommersiya Hüququnun İnkişafı Proqramının (CLDP) birgə təşkilatçılığı ilə hakimlər üçün "Əqli mülkiyyət barədə məhkəmə qərarı" mövzusunda seminar keçirilib.**

Tədbirin açılışında çıxış edən Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xələfov, Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin direktoru Xudayət Həsənli, ABŞ-ın Azərbaycandakı səfirinin müavini Maykl Dikerson və CLDP proqramının beynəlxalq hüquq məsləhətçisi xanım Arezo Yazd hakimlər üçün əqli mülkiyyət sahəsində təlimin keçirilməsinin əhəmiyyətini vurğulayıblar və tədbirin işinə uğurlar arzulayıblar.

Seminarda X.Həsənlinin "Azərbaycanda patent hüquqlarının təminatı məsələləri" mövzusunda məruzəsi dinlənilib.

ABŞ-ın Altıncı Dairə Apellyasiya məhkəməsinin hakimi xanım Bernis Donald, ABŞ-ın Minnesota şəhəri məhkəməsinin hakimi xanım Beki Torson və Bakı şəhəri inzibati məhkəməsinin hakimi Günel Sevdimalıyeva əqli mülkiyyət kazusları üzrə məhkəmə qərarları haqqında ABŞ və Azərbaycan təcrübələri barədə ətraflı məlumat veriblər.

Əqli Mülkiyyət Agentliyinin Hüquq, apellyasiya və daxili nəzarət şöbəsinin müdiri İqbal Əsgərov və həmin şöbənin müdir müavini Faiq Əlizadə Agentliyin müəlliflik hüququ və sənaye mülkiyyəti obyektləri üzrə mübahisələrin həlli istiqamətində fəaliyyəti və bu sahədə məhkəmə təcrübəsi barəsində təqdimatlar ediblər.

Təlim prosesində vurulan zərərin hesablanması, əmtəə nişanları, müəlliflik hüququ, retranslyasiyaya görə müəllif qonorarının ödənilməsi, kommersiya sirri, proqram təminatı lisenziyaları, o cümlədən əqli mülkiyyət sahəsində məhkəmə işləri barədə geniş fikir mübadiləsi aparılıb.

**AzərTac**



## Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 8 (II kitab), maddə 585; 2001, N 7, maddə 455; 2002, N 1, maddə 9, N 5, maddə 233, N 8, maddə 463; 2003, N 6, maddə 276; 2004, N 5, maddə 321, N 7, maddə 505, N 8, maddə 598, N 10, maddə 761, N11, maddə 890; 2005, N 1, maddə 4, N 4, maddə 278, N 6, maddə 462, N 8, maddə 686, N 10, maddə 874, N 12, maddə 1079; 2006, N 1, maddə 3, N 2, maddə 64, N 5, maddə 390, N 10, maddə 847, N 11, maddə 929, N 12, maddə 1032; 2007, N 2, maddələr 65, 68, N 6, maddə 560, N 7, maddə 712, N 8, maddə 756, N 11, maddə 1049, N 12, maddə 1221; 2008, N 6, maddə 462, N 7, maddələr 606, 607, N 12, maddələr 1045, 1049; 2009, N 5, maddə 315, N 7, maddə 517, N 12, maddə 966; 2010, N 3, maddələr 171, 173, 178, N 7, maddə 593, N 12, maddə 1058; 2011, N 6, maddə 480, N 7, maddələr 589, 599; 2012, N 7, maddə 674, N 11, maddə 1062, N 12, maddə 1215; 2013, N 2, maddə 77, N 6, maddələr 616, 626, N 7, maddə 786, N 11, maddə 1265, N 12, maddə 1493; 2014, N 2, maddələr 90, 102, N 4, maddələr 328, 344, N 6, maddə 600, N 11, maddələr 1354, 1362; 2015, N 4, maddə 342, N 5, maddə 511, N11, maddələr 1270, 1288; 2016, N 2 (II kitab), maddə 218, N 10, maddə 1607, N 12, maddələr 2020, 2031, 2034, 2039; 2017, N 5, maddə 751, N 12 (I kitab), maddələr 2232, 2267; 2018, N 5, maddələr 877, 882, N 7 (I kitab), maddə 1421, N 11, maddə 2235, N12 (I kitab), maddə 2515; 2019, N 7, maddələr 1198, 1200, N 12, maddə 1898; 2020, N 6, maddə 675, N 7, maddələr 832, 852, 856; 2021, N 6 (I kitab), maddə 541, N 7, maddə 711) 51-1.1-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

"51-1.1. Elektron qaydada məhkəmə icraatı, həmçinin məhkəmə nəzarətinin həyata keçirilməsi qaydasında məhkəmələrdə aparılan icraat bu Məcəllə ilə müəyyən edilmiş prosessual qaydalara uyğun olaraq "Elektron məhkəmə" informasiya sistemi vasitəsi ilə aparılır. Cinayət prosesini həyata keçirən digər orqanların informasiya sistemləri prosessual sənədlərin və digər materialların bu Məcəllə ilə müəyyən edilmiş prosessual qaydalara uyğun olaraq məhkəmələrlə elektron qaydada mübadilə edilməsi üçün "Elektron məhkəmə" informasiya sisteminə inteqrasiya olunur.".

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 15 aprel 2022-ci il*
*N509-VIQD*

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublika-

sının Qanunvericilik Toplusu, 2000, N 4 (II kitab), maddə 251, N 5, maddə 323, N 12, maddə 835; 2001, N 1, maddə 24, N 7, maddə 455; 2002, N 1, maddə 9, N 5, maddələr 236, 248, 258, N 6, maddə 326, N 8, maddə 465; 2003, N 6, maddələr 276, 279, N 8, maddələr 424, 425, N 12 (I kitab), maddə 676; 2004, N 1, maddə 10, N 4, maddə 200, N 5, maddə 321, N 8, maddə 598, N 10, maddə 762, N 11, maddə 900; 2005, N 1, maddə 3, N 6, maddə 462, N 7, maddə 575, N 10, maddə 904, N 11, maddə 994; 2006, N 2, maddələr 71, 72, 75, N 5, maddə 390, N 12, maddələr 1008, 1020, 1028; 2007, N 2, maddə 68, N 5, maddə 398, N 6, maddələr 560, 562, 579, N 8, maddə 757, N 10, maddələr 937, 941, N 11, maddələr 1049, 1080, 1090, N 12, maddə 1221; 2008, N 6, maddələr 454, 461, N 7, maddə 602, N 10, maddə 884, N 12, maddələr 1047, 1049; 2009, N 5, maddə 315, N 7, maddə 517, N 12, maddə 953; 2010, N 2, maddə 70, N 3, maddələr 171, 178, N 4, maddələr 275, 276, N 7, maddə 591; 2011, N 4, maddə 253, N 6, maddə 472, N 7, maddələr 587, 601, 621, N 11, maddə 980, N 12, maddə 1093; 2012, N 2, maddə 45, N 3, maddələr 193, 196, N 7, maddələr 666, 669, 673, N 11, maddə 1068, N 12, maddə 1223; 2013, N 1, maddə 14, N 2, maddə 102, N 4, maddə 364, N 5, maddələr 459, 479, 481, N 6, maddələr 594, 600, N 11, maddələr 1264, 1286, 1312, N 12, maddə 1492; 2014, N 2, maddələr 89, 95, N 4, maddə 327, N 6, maddələr 618, 622; 2015, N 4, maddələr 339, 359, 368, N 5, maddələr 504, 508, 510, N 6, maddələr 678, 690, 692, N 11, maddələr 1253, 1268, 1289, 1298, N 12, maddələr 1437, 1445; 2016, N 4, maddələr 634, 636, 638, 653, N 5, maddə 845, N 6, maddələr 993, 1001, N 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, N 2, maddə 161, N 3, maddə 330, N 5, maddələr 694, 697, 700, 702, 733, N 7, maddələr 1268, 1271, 1293, N 11, maddələr 1968, 1978, N 12 (I kitab), maddə 2231; 2018, N 3, maddə 403, N 5, maddə 861, N 6, maddə 1154, N 7 (I kitab), maddə 1441, N 10, maddə 1972, N 11, maddə 2213, N 12 (I kitab), maddə 2472; 2019, N 4, maddə 586, N 7, maddə 1201, N 8, maddə 1367; 2020, N 3, maddə 223, N 5, maddə 518, N 7, maddə 832, N 8, maddə 1010, N 11, maddələr 1332, 1333; 2021, N 6 (I kitab), maddə 541, N 8, maddə 894; Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 453-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 99-4.5-ci maddədə "214-220, 233" rəqəmləri "206.2-206.4, 214-220, 233, 234, 237, 240" rəqəmləri ilə əvəz edilsin;

1.2. 206-cı maddə üzrə:

1.2.1. 206.2-ci maddədə "təsirli" sözü "təsir edən" sözləri ilə əvəz edilsin;

1.2.2. 206.3-cü maddədə "206.1 və ya 206.2-ci" sözləri "206.1-206.2-ci" sözləri ilə əvəz edilsin;

1.3. 234-cü maddə üzrə:

1.3.1. 234.1-ci maddədə "şəxsi istehlak miqdarından artıq" sözləri "xeyli" sözü ilə əvəz edilsin;

1.3.2. aşağıdakı məzmunda 234.1-1-ci maddə əlavə edilsin:

"234.1-1. Bu Məcəllənin 234.1-ci maddəsində nəzərdə tutulmuş əməllər külli miqdarda törədildikdə -

üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

1.3.3. 234.4.3-cü maddənin sonunda tire işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 234.4.4-cü maddə əlavə edilsin:

"234.4.4. kütləvi informasiya vasitələrindən, o cümlədən internet informasiya ehtiyatlarından və ya informasiya-telekommunikasiya şəbəkələrindən istifadə etməklə törədildikdə -";

1.3.4. aşağıdakı məzmunda 234.4-1-ci maddə əlavə edilsin:

"234.4-1. Bu Məcəllənin 234.1-234.4-cü maddələrində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda törədildikdə -

səkkiz ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

1.3.5. "Qeyd" hissəsinin 2-ci bəndində "şəxsi istehlak miqdarından artıq və külli" sözləri "xeyli, külli və xüsusilə külli" sözləri ilə, "xeyli və külli" sözləri "xeyli, külli və xüsusilə külli" sözləri ilə əvəz edilsin;

1.4. aşağıdakı məzmunda 235.5-ci maddə əlavə edilsin:

"235.5. Bu Məcəllənin 235.1-235.4-cü maddələrində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda törədildikdə -

on ildən on yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

1.5. 237-ci maddə üzrə:

1.5.1. 237.1-ci maddədə ", yetişdirmə və ya onları (onların hissələrini) toplama" sözləri "və ya yetişdirmə" sözləri ilə əvəz edilsin;

1.5.2. aşağıdakı məzmunda 237.3-cü maddə əlavə edilsin:

"237.3. Bu Məcəllənin 237.1 və 237.2-ci maddələrində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda törədildikdə -

altı ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

1.6. 240-cı maddə üzrə:

1.6.1. aşağıdakı məzmunda 240.3-1-ci maddə əlavə edilsin:

"240.3-1. Bu Məcəllənin 240.1, 240.2 və 240.3-cü maddələrində nəzərdə tutulmuş əməllər güclü təsir edən maddələrə münasibətdə xüsusilə külli miqdarda törədildikdə -

altı ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

1.6.2. "Qeyd" hissəsinin 1-ci bəndinə "külli" sözündən sonra "və xüsusilə külli" sözləri əlavə edilsin.

Maddə 2. Keçid müddəaları

2.1. Bu Qanunun 1.3.1-ci, 1.3.4-cü, 1.3.5-ci, 1.4-cü, 1.5-ci maddələri narkotik vasitələrin və ya psixotrop maddələrin xeyli və xüsusilə külli miqdarını, habelə prekursorların və qanunsuz kultivasiya edilən tərkibində narkotik maddələr olan bitkilərin xüsusilə külli miqdarını müəyyən edən müvafiq qanunla eyni gündə qüvvəyə minir.

2.2. Bu Qanunun 1.6-cı maddəsi narkotik vasitələrə və ya psixotrop maddələrə aid olmayan güclü təsir edən maddələrin xüsusilə külli miqdarını müəyyən edən müvafiq qanunla eyni gündə qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan**
**Respublikasının Prezidenti**
*Bakı şəhəri, 26 aprel 2022-ci il*
*N516-VIQD*

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq qərara alır:

Maddə 1. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 2 (I kitab), maddə 202, N 3, maddələr 397, 403, 429, N 4, maddələr 631, 647, 654, N 5, maddələr 835, 846, N 6, maddələr 997, 1010, N 7, maddələr 1247, 1249, N 10, maddə 1608, N 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, N 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, N 1, maddə 21, N 2, maddələr 139, 147, 152, 162, N 3, maddələr 331, 344, N 5, maddələr 698, 701, 734, 749, 754, N 6, maddələr 1020, 1033, 1036, N 7, maddələr 1273, 1296, 1297, 1299, N 11, maddələr 1964, 1966, 1969, 1979, N 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, N 1, maddə 19, N 2, maddələr 160, 162, 163, N 3, maddələr 383, 401, 404, N 4, maddə 646, N 5, maddələr 857, 860, 862, 876, 883, N 6, maddələr 1153, 1188, N 7 (I kitab), maddələr 1435, 1437, 1438, N 10, maddə 1963, N 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, N 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, N 1, maddələr 4, 6, 15, 18, 23, 44, N 3, maddələr 374, 389, N 4, maddələr 579, 581, 587, 595, N 5, maddələr 791, 800, 803, 804, 813, N 6, maddələr 992, 998, 1007, N 7, maddə 1193, N 8, maddələr 1364, 1367, 1368,

1381, 1383, N 11, maddələr 1682, 1686, 1696, N 12, maddələr 1883, 1900; 2020, N 3, maddə 222, N 5, maddələr 505, 515, 519, N 6, maddələr 670, 672, 681, N 7, maddələr 838, 841, 846, 854, N 8, maddələr 1008, 1011, N 9, maddə 1138, N 11, maddələr 1332, 1333, 1336, N 12 (I kitab), maddələr 1432, 1440; 2021, N 4, maddə 306, N 5, maddə 428, N 6 (I kitab), maddələr 535, 541, 546, 560, N 7, maddələr 701, 705, 711, N 8, maddə 894, N 11, maddə 1208, N 12, maddələr 1306, 1334; 2022, N 1, maddə 2; Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 449-VIQD nömrəli və 2022-ci il 25 fevral tarixli 487-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 206-cı maddə üzrə:

1.1.1. maddənin adında, dispozisiyasında və "Qeyd" hissəsində "şəxsi istehlak miqdarında" sözləri "az miqdarda" sözləri ilə əvəz edilsin;

1.1.2. "Qeyd" hissəsinin mətni birinci bənd hesab edilsin və həmin hissəyə aşağıdakı məzmunda ikinci bənd əlavə edilsin:

"2. Bu maddədə "az miqdarda" dedikdə, narkotik vasitələrin və psixotrop maddələrin müvafiq qanunla müəyyən edilmiş xeyli miqdarından aşağı miqdar başa düşülür.";

1.2. 208-ci maddənin dispozisiyasında ", yetişdirilməsinə və ya onların (onların hissələrinin) toplanılmasına" sözləri "və ya yetişdirilməsinə" sözləri ilə əvəz edilsin.

Maddə 2. Bu Qanun narkotik vasitələrin və psixotrop maddələrin xeyli miqdarını müəyyən edən müvafiq qanunla eyni gündə qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan**
**Respublikasının Prezidenti**

*Bakı şəhəri, 26 aprel 2022-ci il*
*N517-VIQD*

## Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq qərara alır:

Maddə 1. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 8 (II kitab), maddə 585; 2001, N 7, maddə 455; 2002, N 1, maddə 9, N 5, maddə 233, N 8, maddə 463; 2003, N 6, maddə 276; 2004, N 5, maddə 321, N 7, maddə 505, N 8, maddə 598, N 10, maddə 761, N 11, maddə 890; 2005, N 1, maddə 4, N 4, maddə 278, N 6, maddə 462, N 8, maddə 686, N 10, maddə 874, N 12, maddə 1079; 2006, N 1, maddə 3, N 2, maddə 64, N 5, maddə 390, N 10, maddə 847, N 11, maddə 929, N 12, maddə 1032; 2007, N 2, maddələr 65, 68, N 6, maddə 560, N 7, maddə 712, N 8, maddə 756, N 11, maddə 1049, N 12, maddə 1221; 2008, N 6, maddə 462, N 7, maddələr 606, 607, N 12, maddələr 1045, 1049; 2009, N 5, maddə 315, N 7, maddə 517, N 12, maddə 966; 2010, N 3, maddələr 171, 173, 178, N 7, maddə 593, N 12, maddə 1058; 2011, N 6, maddə 480, N 7, maddələr 589, 599; 2012, N 7, maddə 674, N 11, maddə 1062, N 12, maddə 1215; 2013, N 2, maddə 77, N 6, maddələr 616, 626, N 7, maddə 786, N 11, maddə 1265, N 12, maddə 1493; 2014, N 2, maddələr 90, 102, N 4, maddələr 328, 344, N 6, maddə 600, N 11, maddələr 1354, 1362; 2015, N 4, maddə 342, N 5, maddə 511, N 11, maddələr 1270, 1288; 2016, N 2 (II kitab), maddə 218, N 10, maddə 1607, N 12, maddələr 2020, 2031, 2034, 2039; 2017, N

5, maddə 751, N 12 (I kitab), maddələr 2232, 2267; 2018, N 5, maddələr 877, 882, N 7 (I kitab), maddə 1421, N 11, maddə 2235, N 12 (I kitab), maddə 2515; 2019, N 7, maddələr 1198, 1200, N 12, maddə 1898; 2020, N 6, maddə 675, N 7, maddələr 832, 852, 856; 2021, N 6 (I kitab), maddə 541, N 7, maddə 711) aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 131-1-ci maddə əlavə edilsin:

"Maddə 131-1. Maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi

131-1.1. Cinayət təqibi üzrə məhkəməyədək icraat zamanı qanunsuz dövriyyədən çıxarılmaqla maddi sübut kimi götürülmüş narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin miqdarı qanunla həmin maddələr üçün müəyyən edilmiş xüsusilə külli miqdarın aşağı həddindən artıq olduqda, müstəntiq və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror həmin maddələrdən bu Məcəllə ilə müəyyən edilmiş qaydada ekspert tərəfindən nümunənin götürülməsini, qalan hissəsinin isə məhv edilməsini və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsini təmin etmək məqsədilə zəruri tədbirlər görməlidirlər.

131-1.2. Ekspertizanın keçirilməsi üçün təqdim edilmiş narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin müvafiq ekspertizası keçirildikdən sonra ekspert həmin maddədən qanunla müəyyən edilmiş xüsusilə külli miqdarının aşağı həddi miqdarında nümunə götürür, bu nümunəni və maddənin qalan hissəsini ayrılıqda qablaşdırır. Ekspert tədqiqatı nəticəsində ekspert həmçinin təqdim edilmiş maddələrin tibbi məqsədlərlə istifadə olunub-oluna bilməməsinə dair rəy verməlidir. Nümunə və həmin maddələrin qalan hissəsi ekspert rəyi ilə birlikdə ekspertiza təyin etmiş şəxsə təqdim edilir.

131-1.3. Maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi məsələsinə müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmə nəzarətinin həyata keçirilməsi qaydasında baxılır. Müvafiq vəsatət və təqdimat ekspert rəyi cinayət təqibini həyata keçirən orqana daxil olduğu vaxtdan 10 gündən gec olmayaraq məhkəməyə təqdim edilməlidir.

131-1.4. Bu Məcəllənin 131-1.3-cü maddəsində nəzərdə tutulmuş vəsatətin təmin edilməsi barədə məhkəmənin qərarı qanuni qüvvəyə mindiyi gündən 10 gün müddətində bu Məcəllənin 131-1.1-ci maddəsində nəzərdə tutulmuş maddələrin qalan hissəsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada məhv edilir və ya tibbi məqsədlərlə istifadəsi üçün təhvil verilir.

131-1.5. Nümunələrin götürülməsi, habelə bu Məcəllənin 131-1.1-ci maddəsində nəzərdə tutulmuş maddələrin qalan hissəsinin məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi məqsədilə müvafiq dövlət qurumuna verilməsi zamanı videoçəkilişdən istifadə edilməklə protokol tərtib olunur. Protokol videoçəkilişi əks etdirən müvafiq məlumat daşıyıcısı ilə birlikdə cinayət təqibi ilə bağlı materiallara əlavə edilir.

131-1.6. Bu Məcəllənin 131-1.2-ci maddəsində nəzərdə tutulmuş nümunələr barədə məsələ cinayət təqibi üzrə icraat başa çatdıqdan sonra bu Məcəllənin 132-ci maddəsində nəzərdə tutulmuş qaydada həll edilir. Cinayət prosesini həyata keçirən orqan iş üzrə yekun qərar çıxararkən nümunələrin məhv edilməli və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməli olduğunu qeyd etməlidir.";

1.2. 442.2.1-ci maddəyə "tətbiq edilməsinə" sözlərindən sonra ", maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsinə və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsinə" sözləri əlavə edilsin;

1.3. 446-cı maddə üzrə:

1.3.1. maddənin adına və 446.1-ci maddəyə "tətbiq edilməsi" sözlərindən sonra ", maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi" sözləri əlavə edilsin;

1.3.2. 446.1.4-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 446.1.5-ci maddə əlavə edilsin:

"446.1.5. bu Məcəllənin 131-1.1-ci maddəsində nəzərdə tutulmuş maddi sübut olan bəzi maddələrdən nümunə götürüldükdən sonra həmin maddələrin qalan hissəsinin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi ilə əlaqədar müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı.";

1.3.3. 446.2-ci maddəyə "446.1.3-cü" sözlərindən sonra "və 446.1.5-ci" sözləri əlavə edilsin və həmin maddədən "hər hansı" sözləri çıxarılsın;

1.3.4. aşağıdakı məzmunda 446.2.9-1-ci maddə əlavə edilsin:

"446.2.9-1. bu Məcəllənin 131-1.1-ci maddəsində nəzərdə tutulmuş maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməli və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməli olan miqdarı, saxlanılan nümunənin miqdarı, həmin maddələrin növü və digər xüsusi əlamətləri, ekspertin təqdim edilmiş maddələrin tibbi məqsədlərlə istifadə olunub-oluna bilməməsinə dair rəyi;";

1.3.5. 446.2.10-cu maddəyə "tətbiq edilməsinin" sözlərindən sonra ", maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsinin və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsinin" sözləri əlavə edilsin;

1.3.6. 446.3-cü maddəyə "tətbiq edilməsi," sözlərindən sonra "maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi" sözləri əlavə edilsin;

1.4. 447-ci maddə üzrə:

1.4.1. maddənin adına və 447.1-ci maddəyə "tətbiq edilməsi" sözlərindən sonra ", maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi" sözləri əlavə edilsin;

1.4.2. aşağıdakı məzmunda 447.4-1-ci maddə əlavə edilsin:

"447.4-1. Maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi məsələləri üzrə qapalı məhkəmə iclasında hakim, məhkəmə iclasının katibi, vəsatət vermiş şəxs, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror və ya müvafiq prokuror, təqsirləndirilən şəxs, onun müdafiəçisi və ya qanuni nümayəndəsi, habelə hakimin zəruri hesab etdiyi digər şəxslər iştirak edirlər.";

1.4.3. 447.5-ci maddədə "və ya prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi məsələləri ilə bağlı məhkəmə iclasına ifadələr," sözləri ", prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi və ya maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi məsələləri ilə bağlı məhkəmə iclasına" sözləri ilə əvəz edilsin;

1.4.4. 447.6-cı maddədə "447.3-cü maddəsində göstərilən şəxslərin istintaq hərəkətinin məcburi aparılması və ya prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi" sözləri "447.3-cü və ya 447.4-1-ci maddələrində göstərilən şəxslərin istintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi və ya maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi" sözləri ilə əvəz edilsin;

1.4.5. 447.7-ci maddəyə "tətbiq edilməsi" sözlərindən sonra ", maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi" sözləri əlavə edilsin;

1.5. 448-ci maddə üzrə:

1.5.1. maddənin adına, 448.1-ci və 448.1.1-ci maddələrə "tətbiq edilməsi" sözlərindən sonra ", maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi" sözləri əlavə edilsin;

1.5.2. 448.1.2-ci və 448.4-cü maddələrə "tətbiq edilməsinə" sözlərindən sonra ", maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsinə və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsinə" sözləri

əlavə edilsin;

1.5.3. aşağıdakı məzmunda 448.4-1-ci və 448.6-1-ci maddələr əlavə edilsin:

"448.4-1. Hakim maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi məsələlərinə dair vəsatətin təmin edilməsi barədə qərar qəbul etdikdə, qərarda həmin maddələrin məhv edilməli və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməli olduğunu qeyd etməlidir.";

"448.6-1. Maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi məsələsi ilə bağlı hakimin qərarının surəti həmin qərar çıxarıldıqdan sonra 3 (üç) gündən gec olmayaraq vəsatəti vermiş şəxsə, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora, təqsirləndirilən şəxsə, onun müdafiəçisinə və ya qanuni nümayəndəsinə, vəsatət təmin edildikdə isə həmçinin maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsini və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsini icra etməli olan müvafiq dövlət orqanının (qurumunun) rəhbərinə göndərilir.";

1.6. 449.3.6-cı və 454-cü maddələrə "tətbiq edilməsi" sözlərindən sonra ", maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi" sözləri əlavə edilsin.

Maddə 2. Bu Qanun narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin xüsusilə külli miqdarını müəyyən edən müvafiq qanunla eyni gündə qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan**
**Respublikasının Prezidenti**

*Bakı şəhəri, 26 aprel 2022-ci il*
*N518-VIQD*

## Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 1 iyun tarixli 1043 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron məhkəmə" informasiya sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 1 iyun tarixli 1043 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, N 6, maddə 685) ilə təsdiq edilmiş "Elektron məhkəmə" informasiya sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 1.2-ci bəndə "Mülki Prosessual Məcəlləsi," sözlərindən sonra "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi," sözləri əlavə edilsin.

2. 6.1.12-ci və 6.1.17-ci yarımbəndlərə "mübahisələrinə dair işlər" sözlərindən sonra ", habelə məhkəmələrin icraatında olan cinayət işləri və cinayət təqibi ilə bağlı digər materiallar" sözləri əlavə edilsin.

3. 9.2.8-ci yarımbənddən "mülki işlər və kommersiya mübahisələri üzrə" sözləri çıxarılsın.

4. 13.6-cı bənddə "10-1.2-ci maddəsində" sözləri "10-1.2-ci və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 51-1.2-ci maddələrində" sözləri ilə əvəz edilsin.

**İlham Əliyev,**
**Azərbaycan**
**Respublikasının Prezidenti**

*Bakı şəhəri, 13 may 2022-ci il*
*N 1676*

## Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, beynəlxalq təcrübə nəzərə alınmaqla hüququn müxtəlif sahələri üzrə islahatların həyata keçirilməsi, normayaratma fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi məqsədilə **qərara alıram:**

1. "Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi" publik hüquqi şəxs yaradılsın.

2. "Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Milli Elmlər Akademiyasının strukturuna daxil olan Hüquq və İnsan Haqları İnstitutu "Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi" publik hüquqi şəxsin (bundan sonra - Mərkəz) tabeliyində "Hüquq və İnsan Haqları İnstitutu" publik hüquqi şəxsə (bundan sonra - İnstitut) çevrilməklə yenidən təşkil edilsin.

4. Müəyyən edilsin ki:

4.1. Mərkəz normayaratma fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi, dövlət orqanları (qurumları) əməkdaşlarının hüquq normalarının tətbiqi sahəsində bilik, bacarıq və səriştələrinin inkişaf etdirilməsi, hüquqi maarifləndirmə, hüquqi ekspertizasının keçirilməsi və hüquqi tənzimləmənin təsirinin qiymətləndirilməsi, habelə qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla Azərbaycan Respublikasında hüquqi islahatların həyata keçirilməsinə dair təkliflər hazırlanması və bunlarla bağlı işlərin səmərəli əlaqələndirilməsi sahəsində (bundan sonra - müvafiq sahə) fəaliyyət göstərən publik hüquqi şəxsdir;

4.2. Mərkəzin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün sədr də daxil olmaqla 5 (beş) üzvdən ibarət Müşahidə Şurası yaradılır;

4.3. Mərkəzin fəaliyyətinə cari rəhbərliyi Mərkəzin Müşahidə Şurasının vəzifəyə təyin və vəzifədən azad etdiyi İcraçı direktor həyata keçirir;

4.4. Mərkəzin Nizamnamə Fondu 100,0 (yüz) min manatdır və dövlət büdcəsinin vəsaiti hesabına formalaşır;

4.5. Mərkəzin saxlanma xərcləri və fəaliyyəti dövlət büdcəsi və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşir;

4.6. Mərkəzin tabeliyindəki İnstitut Azərbaycan Milli Elmlər Akademiyasının strukturuna daxil olan Hüquq və İnsan Haqları İnstitutunun hüquqi varisidir, onun əmlakı, hüquq və öhdəlikləri İnstituta keçir;

4.7. Mərkəzin tabeliyindəki İnstitutun təsisçisinin "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində nəzərdə tutulmuş səlahiyyətlərini Mərkəz həyata keçirir.

5. Mərkəzin təsisçisinin səlahiyyətləri aşağıdakılara həvalə edilsin:

5.1. Azərbaycan Respublikasının Prezidentinə:

5.1.1. nizamnamənin təsdiq olunması və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

5.1.2. idarəetmə orqanlarının yaradılması;

5.1.3. Müşahidə Şurasının sədrinin və 3 (üç) üzvünün vəzifəyə təyin və vəzifədən azad edilməsi;

5.1.4. Mərkəzin ləğvi və

yenidən təşkili;

5.1.5. "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 3.3-cü maddəsində nəzərdə tutulmuş qərarın qəbul edilməsi;

5.2. Mərkəzə:

5.2.1. Mərkəzin strukturunun, əməyin ödənişi fondunun, işçilərinin say həddinin və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğinin Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiqi;

5.2.2. bu Fərmanın 5.1-ci bəndində nəzərdə tutulanlar istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

6.1. Mərkəzin yaradılması ilə əlaqədar normativ hüquqi aktların bu Fərmana uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

6.2. Mərkəz "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı gündən bir ay müddətində:

6.2.1. Azərbaycan Milli Elmlər Akademiyasının strukturuna daxil olan Hüquq və İnsan Haqları İnstitutunun balansındakı dövlət əmlakının Mərkəzin tabeliyindəki İnstitutun balansına verilməsini təmin etsin;

6.2.2. bu Fərmanın 3-cü hissəsi nəzərə alınmaqla, Azərbaycan Milli Elmlər Akademiyasının strukturunda və işçilərinin say həddində dəyişiklik edilməsini təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

6.2.3. Mərkəzin inzibati bina ilə, nəqliyyat vasitələri ilə təmin edilməsi və maddi-texniki təminat məsələlərinin həlli üçün zəruri tədbirlər görsün;

6.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

7. Mərkəz:

7.1. Mərkəzin dövlət qeydiyyatına alınması üçün bu Fərman qüvvəyə mindiyi tarixdən 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə müraciət etsin;

7.2. Mərkəz dövlət qeydiyyatına alındıqdan sonra Mərkəzin işçilərinin say həddi və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla bir ay müddətində təsdiq etsin;

7.3. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

8. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

8.1. bu Fərmanın 4.4-cü bəndində nəzərdə tutulan maliyyələşməni təmin etsin;

8.2. Mərkəzin saxlanılması və fəaliyyəti üçün tələb olunan vəsaiti hər il dövlət büdcəsinin layihəsində nəzərdə tutsun.

9. Mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlətə məxsus olan hüquqi şəxslər Mərkəzin Nizamnaməsinin 3.1.10-cu və 3.1.11-ci yarımbəndlərinə uyğun olaraq, hüquq sahəsində fəaliyyət göstərən əməkdaşlarının normayaratma fəaliyyəti və hüquq normalarının tətbiqi sahəsində təlimlərə cəlb edilməsi üçün zəruri tədbirlər görsünlər.

10. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə tövsiyə edilsin ki, Mərkəzin Müşahidə Şurasında təmsil olunacaq nümayəndəsini müəyyən etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 19 may 2022-ci il*
*N 1685*

*Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 19 may tarixli 1685 nömrəli Fərmanı ilə təsdiq edilmişdir*

# Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin NİZAMNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi (bundan sonra - Mərkəz) normayaratma fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi, dövlət orqanları (qurumları) əməkdaşlarının hüquq normalarının tətbiqi sahəsində bilik, bacarıq və səriştələrinin inkişaf etdirilməsi, hüquqi maarifləndirmə, hüquqi ekspertizanın aparılması və hüquqi tənzimləmənin təsirinin qiymətləndirilməsi, habelə qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla Azərbaycan Respublikasında hüquqi islahatların həyata keçirilməsinə dair təkliflər hazırlanması və bunlarla bağlı işlərin səmərəli əlaqələndirilməsi sahəsində (bundan sonra - müvafiq sahə) fəaliyyət göstərən publik hüquqi şəxsdir.

1.2. Mərkəz öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikasının digər qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları rəhbər tutur.

1.3. Mərkəz öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqanları (qurumları) ilə, yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Mərkəz ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur. Mərkəz bu Nizamnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

1.5. Mərkəzin müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, üzərində öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.6. Qanuna uyğun olaraq, Mərkəzin əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır, o, məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edir.

1.7. Mərkəz Bakı şəhərində yerləşir.

## 2. Mərkəzin fəaliyyətinin istiqamətləri

2.1. Mərkəzin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. normativ hüquqi aktların, inkişaf konsepsiyalarının və məqsədli dövlət proqramlarının layihələrinin hazırlanması və hüquqi ekspertizasının aparılmasında iştirak etmək;

2.1.2. hüquqi boşluqların və qanunvericilikdə kolliziyaların aşkar edilməsi və aradan qaldırılması üçün qanunvericiliyin inkişafında və təkmilləşdirilməsində iştirak etmək;

2.1.3. normayaratma fəaliyyətinin effektivliyinin artırılması məqsədilə mövcud normativ hüquqi bazanın monitorinqinin aparılmasında iştirak etmək;

2.1.4. normativ hüquqi tənzimləmənin təsirinin qiymətləndirilməsinin aparılmasında iştirak etmək;

2.1.5. Azərbaycan Respublikası Prezidentinin tapşırığı ilə və ya dövlət orqanlarının (qu-

rumlarının) sifarişi əsasında hüquqi islahatlar aparılmasına dair təkliflər vermək;

2.1.6. hüquqi maarifləndirmə sahəsində tədbirlər görmək;

2.1.7. bu Nizamnamə ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

### 3. Mərkəzin vəzifələri və hüquqları

3.1. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Mərkəzin vəzifələri aşağıdakılardır:

3.1.1. normativ hüquqi aktların, inkişaf konsepsiyalarının və məqsədli dövlət proqramlarının layihələrinin hazırlanması və hüquqi ekspertizasının aparılmasında iştirak etmək, bu sahədə dövlət orqanlarına (qurumlarına) müqavilə əsasında xidmətlər göstərmək;

3.1.2. hüquqi aktların hazırlanmasında dövlət orqanlarına (qurumlarına) müqavilə əsasında məsləhət xidmətləri göstərmək;

3.1.3. hazırlanan hüquqi akt layihələrinin və qüvvədə olan hüquqi aktların qanunvericiliyin təsirinin qiymətləndirilməsinin aparılmasında iştirak etmək;

3.1.4. Azərbaycan Respublikası Prezidentinin tapşırığı ilə və ya dövlət orqanlarının (qurumlarının) sifarişi əsasında hüquqi islahatlar aparılmasına dair təkliflər hazırlamaq və aidiyyəti üzrə təqdim etmək;

3.1.5. hüququn müxtəlif sahələri üzrə qabaqcıl beynəlxalq təcrübəni ətraflı araşdırmaq və nəticəsi nəzərə alınmaqla, mövcud normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflər vermək;

3.1.6. Azərbaycan Respublikasının və xarici dövlətlərin qanunvericiliyinin müqayisəli hüquqi tədqiqatını aparmaq və nəticəsi nəzərə alınmaqla, hüququn ayrı-ayrı sahələri üzrə inkişaf konsepsiyaları hazırlamaq və aidiyyəti üzrə təqdim etmək;

3.1.7. məcəllələrin və digər normativ hüquqi aktların elmi-praktiki kommentariyasının hazırlanmasını təşkil etmək;

3.1.8. məhkəmə-hüquq islahatları sahəsində dövlət siyasətinin formalaşdırılmasına və həyata keçirilməsinə dair təkliflər vermək;

3.1.9. normativ xarakterli aktlar və mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun tələbləri gözlənilməklə qəbul edilməsinə nəzarətin həyata keçirilməsində iştirak etmək;

3.1.10. dövlət orqanlarının (qurumlarının) sifarişi əsasında həmin dövlət orqanlarının (qurumlarının) hüquq sahəsində fəaliyyət göstərən əməkdaşlarının hüquqi biliklərinin və təcrübələrinin artırılması üçün normayaratma fəaliyyəti və hüquq normalarının tətbiqi sahəsində təlimlər keçirmək;

3.1.11. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərini təhlil etmək və nəticəsindən asılı olaraq təkliflər vermək, habelə aidiyyəti dövlət orqanlarının (qurumlarının) əməkdaşları üçün bu sahədə müqavilə əsasında təlimlər keçirmək;

3.1.12. hüquqi maarifləndirmə işinin aparılmasında, o cümlədən hüquqi islahatların məzmunu və mahiyyəti barədə ictimaiyyətin məlumatlandırılmasında iştirak etmək;

3.1.13. hüquqi aktların Azərbaycan dilindən xarici dillərə və xarici dillərdən Azərbaycan dilinə tərcümə edilməsi üzrə xidmətlər göstərmək;

3.1.14. elmi müəssisələr və ali təhsil müəssisələri ilə əlaqələr yaratmaq;

3.1.15. hüquqi aktlardan, elmi-hüquqi materiallardan ibarət olan çoxfunksiyalı axtarış imkanını nəzərdə tutan elektron informasiya sistemini yaratmaq və həmin sistemdəki məlumatların müntəzəm olaraq yenilənməsini təmin etmək və bu məlumatları müqavilə əsasında dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə təqdim etmək;

3.1.16. hüquq sahəsində peşəkar mütəxəssislər hazırlanması və tədris proqramlarının

tərtibi ilə bağlı təkliflər vermək və onların həyata keçirilməsində iştirak etmək;

3.1.17. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.18. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.19. müvafiq sahədə dövlət orqanlarının (qurumlarının), yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin fəaliyyətini əlaqələndirmək;

3.1.20. Mərkəzin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.21. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək, Mərkəz əməkdaşlarının əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.22. Mərkəzə ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.23. Mərkəzin informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.24. qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.25. Mərkəzin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.26. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün Mərkəzin aşağıdakı hüquqları vardır:

3.2.1. müvafiq sahədə normativ hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişiklik edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında aidiyyəti üzrə təkliflər vermək;

3.2.2. müvafiq sahədə beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxması barədə təkliflər vermək;

3.2.3. beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

3.2.4. "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, hüquqi islahatlar aparılmasına dair təkliflərlə bağlı ictimai müzakirələr və ictimai dinləmələr təşkil etmək, həmin təkliflərə dair ictimai rəyi öyrənmək və müvafiq hüquqi aktların layihələrinə dair ictimai müzakirələr təşkil etmək və keçirmək;

3.2.5. hüququn müxtəlif sahələri üzrə tədqiqatlar, sorğular aparmaq və nəticələrini dövlət orqanlarına (qurumlarına) təqdim etmək;

3.2.6. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.7. dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.8. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.9. müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

3.2.10. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr və digər tədbirlər təşkil etmək;

3.2.11. əməkdaşlarını dövlət

təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.12. sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, Azərbaycan Respublikası Prezidentinin razılığı ilə təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək;

3.2.13. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

3.2.14. bu Nizamnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**4. Mərkəzin idarə olunması**

4.1. Mərkəz öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

4.2. Mərkəzin idarəetmə orqanları Müşahidə Şurası və İcraçı direktordur.

4.3. Mərkəzin Müşahidə Şurası (bundan sonra - Şura) Mərkəzə ümumi rəhbərliyi və nəzarəti həyata keçirir.

4.4. Şura sədr də daxil olmaqla 5 (beş) üzvdən ibarətdir. Müşahidə Şurasının tərkibinə Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri (sədr olmaqla), Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının rektoru, Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Hüquq və qanunvericilik şöbəsinin müdiri və Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri daxildir.

4.5. Şura ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərir.

4.6. Şura qərar qəbul etməkdə müstəqildir.

4.7. Şuranın vəzifələri aşağıdakılardır:

4.7.1. təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Prezidentinə təkliflər vermək və müvafiq sənədlər (o cümlədən Mərkəzin maliyyə hesabatını və fəaliyyətinə dair illik hesabatı) təqdim etmək;

4.7.2. Mərkəzin inkişaf istiqamətlərini, strateji məqsədlərini və planlarını müəyyən etmək;

4.7.3. Mərkəzin fəaliyyətinə nəzarət etmək;

4.7.4. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Mərkəzin strukturunu, əməyin ödənişi fondunu, işçilərinin say həddini və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini təsdiq etmək, o cümlədən Mərkəzin əldə etdiyi vəsait (dövlət büdcəsindən və dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sistemini müəyyənləşdirmək;

4.7.5. Azərbaycan Respublikası Prezidentinin razılığı ilə Mərkəzin təsərrüfat cəmiyyətlərinin yaradılması və ya onlarda iştirak barədə, həmçinin Mərkəzin idarə, filial və nümayəndəliklərinin yaradılması barədə qərar qəbul etmək;

4.7.6. Mərkəzin maliyyə planlaşdırmasını və büdcəsini təsdiq etmək;

4.7.7. Mərkəzin fəaliyyətinə dair daxili qaydaları (o cümlədən maraqlar münaqişəsinin istisna olunması qaydasını), habelə idarə, filial və nümayəndəliklərinin əsasnamələrini, təsərrüfat cəmiyyətlərinin nizamnamələrini təsdiq etmək;

4.7.8. İcraçı direktorun fəaliyyətinə nəzarət etmək və onun fəaliyyətini yoxlamaq;

4.7.9. Şura üzvlərinin və İcraçı direktorun müraciətlərinə baxmaq və qərar qəbul etmək;

4.7.10. Mərkəzin fəaliyyətinə dair illik hesabatı dinləmək;

4.7.11. Mərkəzin kənar auditorunu təyin etmək və audit hesabatını qəbul etmək;

4.7.12. kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görmək;

4.7.13. Mərkəzin xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri Mərkəzin aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;

4.7.14. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

4.8. Şuranın sədri ildə azı bir dəfə Şuranın iclasını çağırır və iclaslara sədrlik edir. Şuranın iclaslarının keçirilməsi təşəbbüsü ilə Şuranın üzvü və ya İcraçı direktor çıxış edir. Şuranın iclasları Şura üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Şuranın iclasında qərarlar hər üzvün bir səsi olmaqla sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.

4.9. Şuranın üzvlərinə, İcraçı direktora, habelə Şuranın iclaslarına dəvət olunan şəxslərə iclasın keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir.

4.10. Şuranın iclasında İcraçı direktor da iştirak edə bilər.

4.11. İclasın gündəliyinə Şuranın hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, bu məsələnin müzakirəsində və həmin məsələyə dair səsvermədə iştirak etməməlidir.

4.12. Gündəliyə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan qabaq təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla, qərar qəbul edilə bilməz.

4.13. Şura iclasının nəticəsi Şuranın üzvlərinin və katibinin imzaladıqları protokolda əks olunmaqla rəsmiləşdirilir. Şuranın katibi Şuranın iclasında iştirak edə bilmədikdə, Şuranın sədri onu əvəz edəcək şəxsi təyin edir. Şura protokolu təsdiq edərək İcraçı direktora göndərir.

4.14. Şuranın katibini Şuranın üzvü olmayan əməkdaşlar sırasından Şuranın sədri təyin edir və Şuranın katibi Şuranın sədrinə hesabat verir.

4.15. Şuranın katibi:

4.15.1. Şuranın iclaslarını təşkil edir;

4.15.2. bu Nizamnamənin 4.9-cu bəndində nəzərdə tutulan vəzifəni icra edir;

4.15.3. Şuranın iclaslarının protokollarını tərtib edir və imzalanmaq üçün Şura üzvlərinə təqdim edir;

4.15.4. Şuranın qərarlarının layihələrini hazırlayır, baxılmaq və imzalanmaq üçün Şuranın sədrinə təqdim edir;

4.15.5. Şuranın qəbul etdiyi qərarların aidiyyəti üzrə göndərilməsini təmin edir.

4.16. Şuranın sədri:

4.16.1. Şuranın işini təşkil edir və onun fəaliyyətinə rəhbərlik edir, habelə özünün və Mərkəzin İcraçı direktorunun qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.16.2. Şuranın iclaslarının gündəliyini müəyyənləşdirir, iclasları çağırır və iclaslara sədrlik edir;

4.16.3. öz təşəbbüsü ilə, habelə Şuranın hər hansı digər üzvünün və ya İcraçı direktorun müraciəti əsasında digər şəxsləri Şuranın iclasında iştirak etməyə dəvət edir;

4.16.4. Şuranın fəaliyyətinin təşkili ilə bağlı digər tədbirlər görür.

4.17. Şuranın üzvləri:

4.17.1. Şuranın səlahiyyətlərinə aid məsələlərin həllində iştirak edirlər;

4.17.2. Şuranın iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulan materiallarla əvvəlcədən tanış olurlar;

4.17.3. Şurada qəbul ediləcək qərarlara dair fikir bildirirlər;

4.17.4. Şuranın səlahiyyətlərinə aid məsələlərə Şuranın iclaslarında baxmaq barədə təklif verirlər;

4.17.5. Şuranın qərarları ilə, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

4.18. Şura üzvləri Şuranın iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, Şura üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

4.19. İcraçı direktor Mərkəzin fəaliyyətinə cari rəhbərliyi həyata keçirir. İcraçı direk-

tor Mərkəzin Müşahidə Şurası tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir. İcraçı direktorun onun təqdimatı əsasında Müşahidə Şurası tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən bir müavini vardır.

4.20. İcraçı direktor müvəqqəti olmadıqda, onun səlahiyyətlərini müvafiq əmrlə onun müavini icra edir.

4.21. İcraçı direktor və onun müavini adlarına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

4.22. İcraçı direktorun vəzifələri aşağıdakılardır:

4.22.1. Mərkəzin fəaliyyətini təşkil etmək;

4.22.2. bu Nizamnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi üçün Şuraya təkliflər vermək və sənədlər təqdim etmək;

4.22.3. Şuranın qərarlarını icra etmək;

4.22.4. Şura ilə razılaşdırmaqla aidiyyəti şəxslə dəyəri Mərkəzin aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;

4.22.5. Mərkəzin strateji məqsədlərinin və planlarının, habelə büdcəsinin icrasına nəzarət etmək;

4.22.6. bu Nizamnamənin 3.1.22-ci yarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

4.22.7. cari və operativ məsələlər barədə Şuranı məlumatlandırmaq;

4.22.8. bu Nizamnamənin 3.1.1-ci və 3.2.1-ci yarımbəndlərində nəzərdə tutulmuş məsələlərin həlli üçün tədbirlər görmək;

4.22.9. Mərkəzin cari fəaliyyətinə rəhbərlik və onu təmsil etmək;

4.22.10. Mərkəzin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər vermək;

4.22.11. Mərkəzin fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil etmək, yoxlamaq və buna nəzarəti həyata keçirmək;

4.22.12. özünün və Mərkəzin struktur bölmələrinin qanunvericiliyə zidd olan qərarlarını ləğv etmək;

4.22.13. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Mərkəzin Aparatının və digər struktur bölmələrinin strukturunu, ştat cədvəlini və xərclər smetasını təsdiq etmək;

4.22.14. Mərkəz işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməyin ödənişi fondu çərçivəsində təşkil etmək;

4.22.15. bu Nizamnamədə müəyyən edilmiş hallar istisna olmaqla, Mərkəzin, o cümlədən onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların işçilərinin (təsərrüfat cəmiyyətlərində isə yalnız rəhbərlərin) vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi barədə Şura ilə razılaşdırmaqla qərarlar qəbul etmək;

4.22.16. Mərkəzin əmlakından bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət etmək;

4.22.17. bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində Mərkəzin adından əməliyyatlar aparmaq, müqavilələr bağlamaq və onların yerinə yetirilməsini təmin etmək;

4.22.18. Mərkəzin fəaliyyət istiqamətləri ilə bağlı məşvərətçi komitələr və işçi qruplar yaratmaq;

4.22.19. Mərkəzin fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görmək;

4.22.20. Mərkəzdə kargüzarlıq və arxiv işinin aparılmasını təmin etmək;

4.22.21. Mərkəzdə müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin etmək;

4.22.22. Şuranın səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar vermək.

**5. Mərkəzin nizamnamə fondu, əmlakı və mənfəəti**

5.1. Mərkəzin nizamnamə fondu 100,0 (yüz) min manatdır.

5.2. Mərkəzin əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi əmlakdan, həmçinin dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

5.3. Mərkəz öz əmlakından yalnız bu Nizamnamə ilə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir, balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirir.

5.4. Mərkəz qanunla nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri müəyyən edilmiş qaydada ödədikdən sonra Mərkəzin, onun idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların fəaliyyətindən əldə edilmiş vəsait üzərində müstəqil sərəncam vermək hüququna malikdir.

5.5. Mərkəzin mənfəəti bu Nizamnamədə nəzərdə tutulmayan məqsədlər üçün yalnız Azərbaycan Respublikası Prezidentinin qərarı ilə dövlət büdcəsinə köçürülür.

5.6. Mərkəzin məhsulları tənzimlənən qiymətlərə aid deyildir.

**6. Mərkəzin fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi**

6.1. Mərkəzin fəaliyyətinə nəzarəti Azərbaycan Respublikasının Prezidenti, həmçinin bu Nizamnamə ilə müəyyən edilmiş qaydada Mərkəzin idarəetmə orqanları həyata keçirirlər.

6.2. Mərkəzin fəaliyyətinə dair illik hesabat Azərbaycan Respublikasının Prezidentinə təqdim edilir.

**7. Mərkəzdə uçot və hesabat**

7.1. Mərkəz "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. Mərkəz "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

7.3. Mərkəz idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

7.4. Mərkəz öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

**8. Mərkəzin ləğvi və yenidən təşkili**

Mərkəzin ləğvini və yenidən təşkilini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

# QANUNÇULUQ

## hüquq jurnalı

**BURAXILIŞA MƏSUL:**
**Rasim Həsənov**

Təsisçinin hüquqi ünvanı:
Azərbaycan Respublikası, AZ1073
Bakı şəhəri, İnşaatçılar pr., 1
Telefon: (+99412) 510-10-01, 537-05-54
Çağrı Mərkəzi: 881
www.justice.gov.az / contact@justice.gov.az

***

Redaksiyanın ünvanı:
Azərbaycan Respublikası, AZ1073
Bakı şəhəri, İnşaatçılar pr., 1
Telefon: (+99412) 537-06-40
Email: mojpress@justice.gov.az

"Qanunçuluq" jurnalı redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş, "Ədliyyə Nəşriyyat Evi" MMC-də çap olunmuşdur.
"Ədliyyə Nəşriyyat Evi" MMC-nin ünvanı:
Xaqani küç., 14, tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri: "Ədliyyə Nəşriyyat Evi" MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701
Azərbaycan Beynəlxalq Bankın Səbail
filialı, kod 805551, VÖEN 9900001881,
M/h 0137010002031, SWIFT/Bik IBAZAZ-2x
Sifariş: 38 Tiraj:1000 ədəd